**“KREDAQRO” QAPALI SƏHMDAR CƏMİYYƏTİ**
**BANK OLMAYAN KREDİT TƏŞKİLATI**

**Beynəlxalq Maliyyə Hesabatları Standartlarına**
**Uyğun Hazırlanmış Maliyyə Hesabatları və**
**Müstəqil Auditorların Rəyi**
31 dekabr 2015-ci il tarixində bitən il üzrə

**MÜNDƏRİCAT**

MÜSTƏQİL AUDİTORLARIN RƏYİ

MALİYYƏ HESABATLARI

Maliyyə vəziyyəti haqqında hesabat....3
Məcmu gəlir haqqında hesabat....4
Səhmdar kapitalında dəyişikliklər hesabatı....5
Pul vəsaitlərinin hərəkəti hesabatı....6

Maliyyə hesabatları üzrə qeydlər

1. GİRİŞ....7
2. HESABATLARIN UYĞUNLUĞUNUN BƏYANI....7
3. DAİMİLİK PRİNSİPİ....8
4. MÜHÜM MÜHASİBAT PRİNSİPLƏRİ....9
5. YENİ VƏ YENİDƏN İŞLƏNİLMİŞ STANDARTLARIN QƏBULU....17
6. PUL VƏ PUL VƏSAİTLƏRİ....25
7. BANKLARDAN ALINACAQ VƏSAİTLƏR....25
8. MÜŞTƏRİLƏRƏ VERİLMİŞ KREDİTLƏR....25
9. ƏMLAK VƏ AVADANLIQLAR....31
10. QEYRİ-MADDİ VƏSAİTLƏR....32
11. DİGƏR AKTİVLƏR....32
12. DERİVATİV MALİYYƏ ALƏTLƏRİ....33
13. SATILANADƏK SAXLANILAN UZUNMÜDDƏTLİ AKTİVLƏR....33
14. MƏNFƏƏT VERGİSİ AKTİVİ....33
15. BANKLARA VƏ DİGƏR MALİYYƏ QURUMLARINA ÖDƏNİLƏCƏK VƏSAİTLƏR....34
16. DİGƏR CARİ ÖHDƏLİKLƏR....34
17. NİZAMNAMƏ KAPİTALI....35
18. KAPİTAL EHTİYATLARI....35
19. XALİS FAİZ GƏLİRLƏRİ....35
20. FAİZ GƏTİRƏN AKTİVLƏR ÜZRƏ EHTİMAL EDİLƏN ZƏRƏR ÜÇÜN EHTİYATLAR....36
21. SATILANADƏK SAXLANILAN UZUNMÜDDƏTLİ AKTİVLƏR ÜZRƏ DƏYƏRSİZLƏŞMƏ....36
22. XARİCİ VALYUTA ƏMƏLİYYATLARI ÜZRƏ XALİS ZƏRƏR....36
23. HAQQ VƏ KOMİSSİYA XƏRCLƏRİ....37
24. İNZİBATİ VƏ ƏMƏLİYYAT XƏRCLƏRİ....37
25. DİGƏR GƏLİRLƏR....37
26. MƏNFƏƏT VERGİSİ....38
27. ŞƏRTİ ÖHDƏLİKLƏR....39
28. ƏLAQƏLİ TƏRƏFLƏRLƏ ƏMƏLİYYATLAR....40
29. MALİYYƏ ALƏTLƏRİNİN ƏDALƏTLİ DƏYƏRİ....41
30. RİSKLƏRİN İDARƏ EDİLMƏSİ SİYASƏTİ....42
31. HESABAT TARİXİNDƏN SONRA BAŞ VERMİŞ HADİSƏLƏR....51

RSM

RSM Azerbaijan

Demirchi Tower 21st floor,
37 Khojaly ave, AZ1025,
Baku, Azerbaijan

T +994(12) 480 4571
F +994(12) 480 4563

www.rsm.az

**MÜSTƏQİL AUDİTOR RƏYİ**

"Kredaqro" Qapalı Səhmdar Cəmiyyəti Bank olmayan Kredit Təşkilatının Səhmdarlarına və İdarə Heyətinə:

***Maliyyə hesabatları üzrə auditor hesabatı***

Biz, "Kredaqro" Qapalı Səhmdar Cəmiyyəti Bank olmayan Kredit Təşkilatının 31 dekabr 2015-ci il tarixinə təqdim edilən maliyyə vəziyyətinə dair hesabatı, həmin tarixdə tamamlanan il üzrə məcmu gəlir haqqında hesabat, kapitalda dəyişikliklər və pul vəsaitlərinin hərəkəti haqqında hesabatlardan, eləcə də əsas mühasibat prinsiplərinin və digər izahedici qeydlərin xülasəsindən ibarət olan maliyyə hesabatlarının audit yoxlamasını apardıq.

***Maliyyə hesabatlarının hazırlanması üzrə rəhbərliyin məsuliyyəti***

Rəhbərlik bu maliyyə hesabatlarının Beynəlxalq Maliyyə Hesabatları Standartlarına uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə görə məsuliyyət daşıyır. Bu məsuliyyətə aşağıdakılar aiddir: maliyyə hesabatlarının hazırlanması ilə əlaqədar, saxtakarlıq və ya yanlışlıqdan qaynaqlanan əhəmiyyətli kənarlaşmaların qarşısını almaq məqsədilə daxili nəzarət sisteminin işlənib hazırlanması, qurulması və möhkəmləndirilməsi; müvafiq mühasibat siyasətinin seçilməsi və tətbiq edilməsi; mövcud şərtlər altında məqbul mühasibat təxminlərinin irəli sürülməsi.

***Auditorun məsuliyyəti***

Bizim məsuliyyətimiz apardığımız audit yoxlamasına əsasən bu maliyyə hesabatlarına dair rəy bildirməkdən ibarətdir. Biz audit yoxlamasını Beynəlxalq Audit Standartları əsasında aparmışıq. Həmin standartların tələbinə görə, biz etik tələblərə əməl etməli və auditi elə şəkildə planlaşdırmalı və aparmalıyıq ki, maliyyə hesabatlaında əhəmiyyətli təhriflərin mövcud olmamasına kifayət qədər əmin olaq.

Audit yoxlamasına maliyyə hesabatlarındakı məbləğlər və açıqlamalara dair auditor sübutu əldə etmək üçün prosedurların yerinə yetirilməsi daxildir. Seçilmiş prosedurların auditorların mühafizəsindən, eləcə də fırıldaqçılıq və ya səhvlər nəticəsində maliyyə hesabatlarının əhəmiyyətli dərəcədə təhrif edilməsi risklərinin qiymətləndirilməsindən asılıdır. Həmin riskləri qiymətləndirərkən auditor müəssisəsinin daxili nəzarət sisteminin effektivliyinə dair rəy bildirmək üçün deyil, şəraitə görə müvafiq audit prosedurlarının işlənib hazırlanması və düzgün təqdim edilməsi üçün müvafiq daxili nəzarət sistemini nəzərdən keçirir. Bundan əlavə, audit yoxlamasına mövcud mühasibat siyasətinin uyğunluğunun və rəhbərliyin mühasibat təxminlərinin əsaslandırılmasının qiymətləndirilməsi, eləcə də maliyyə esabatlarının ümumi təqdimatının dəyərləndirilməsi daxildir.

Biz hesab edirik ki, audit rəyimizi bildirmək üçün əsas verən kifayət qədər və uyğun auditor sübutu əldə etmişik.



RSM Azerbaijan is a member of the RSM network and trades as RSM. RSM is the trading name used by the members of the RSM network. Each member of the RSM network is an independent accounting and consulting firm which practices in its own right. The RSM network is not itself a separate legal entity in any jurisdiction.

*Rəy*

Bizim fikrimizcə, əlavə edilən maliyyə heabatları bütün mühüm aspektlər baxımından "Kredaqro" Qapalı Səhmdar Cəmiyyəti Bank olmayan Kredit Təşkilatının 31 dekabr 2015-ci il tarixinə olan maliyyə vəziyyətini, onun fəaliyyətinin nəticələrini və pul vəsaitlərinin hərəkətini Beynəlxalq Maliyyə Hesabatları Standartlarına uyğun olaraq həmin tarixdə başa çatan il üçün düzgün əks etdirir.

***Digər bölmə***

Təşkilatın 31 dekabr 2015-ci il tarixinə Amerika Birləşmiş Ştatlarının Ümumi Qəbul edilmiş Mühasibat Prinsiplərinə (ÜQMP) uyğun olaraq hazırladığı bir qrup digər maliyyə hesabatlarına əsasən, biz 25 aprel 2016-cı il tarixində Şirkətin səhmdarlarına digər audit hesabatı təqdim etmişik.

Bakı, Azərbaycan Respublikası
25 aprel, 2016-cı il

RSM Azerbaijan

## MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABAT
## 31 DEKABR 2015-Cİ İL TARİXİNƏ

| *Azərbaycan Manatı ilə* | Qeyd | 31 dekabr 2015 | 31 dekabr 2014 |
|---|---|---|---|
| **AKTİVLƏR** | | | |
| Pul və pul vəsaitləri | 6 | 746,706 | 897,125 |
| Banklar və digər maliyyə institutlarından alınacaq vəsaitlər | 7 | - | 8,628,400 |
| Müştərilərə verilmiş kreditlər, xalis | 8 | 28,789,938 | 30,693,225 |
| Əmlak və Avadanlıq | 9 | 1,642,903 | 1,738,233 |
| Qeyri-maddi aktivlər | 10 | 102,692 | 107,567 |
| Təxirə salınmış vergi aktivi | 26 | 80,015 | 80,015 |
| Digər aktivlər | 11 | 732,278 | 591,795 |
| Derivativ maliyyə alətləri | 12 | 1,282,000 | - |
| Satılanadək saxlanılan uzunmüddətli aktivlər | 13 | 1,552,691 | 1,476,330 |
| Mənfəət vergisi aktivi | | 425,653 | - |
| **CƏMİ AKTİVLƏR** | | **35,354,876** | **44,212,690** |
| **ÖHDƏLİKLƏR** | | | |
| Banklara və digər maliyyə institutlarına ödəniləcək vəsaitlər | 15 | 31,081,332 | 28,869,557 |
| Digər öhdəliklər | 16 | 236,676 | 205,342 |
| Mənfəət vergisi öhdəliyi | | - | 184,116 |
| **CƏMİ ÖHDƏLİKLƏR** | | **31,318,008** | **29,259,015** |
| **KAPİTAL** | | | |
| Nizamnamə kapitalı | 17 | 452,300 | 452,300 |
| Kapital ehtiyatları | 18 | 1,593,963 | 1,593,963 |
| Bölüşdürülməmiş mənfəət | | 1,990,605 | 12,907,412 |
| **CƏMİ KAPİTAL** | | **4,036,868** | **14,953,675** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | **35,354,876** | **44,212,690** |

**İdarə Heyəti adından:**

**Məcid Əsədov,**
**Direktor**

25 aprel 2016
Bakı, Azərbaycan

**Mahmud Qasımov**
**Maliyyə Departamentinin direktoru**

25 aprel 2016
Bakı, Azərbaycan

8-51-ci səhifələrdə verilmiş qeydlər maliyyə hesabatlarının tərkib hissəsini təşkil edir.

**MƏCMU GƏLİR HAQQINDA HESABAT**
**31 DEKABR 2015-Cİ İL TARİXİNƏ BİTƏN İL ÜZRƏ**

| *Azərbaycan Manatı ilə* | Qeyd | 31 dekabr 2015 | 31 dekabr 2014 |
|---|---|---|---|
| Faiz gəlirləri | 19 | 10,324,719 | 10,754,979 |
| Faiz xərcləri | 19 | (2,779,900) | (2,604,275) |
| **Faiz gətirən aktivlər üzrə ehtimal olunan zərər üçün ehtiyatlar bərpa olunmamışdan/(təmin olunmamışdan) əvvəl xalis faiz gəliri** | | **7,544,819** | **8,150,704** |
| Faiz gətirən aktivlər üzrə ehtimal olunan zərər üçün (ehtiyatlar)/bərpa olunma | 20 | (3,751,372) | (133,043) |
| **Xalis faiz gəlirləri** | | **3,793,447** | **8,017,661** |
| Əmək haqqı və bonuslar | | (3,344,655) | (3,640,182) |
| Satılanadək saxlanılan uzunmüddətli aktivlər üzrə dəyərsizləşmənin bərpa olunması | 21 | 32,201 | - |
| Xarici valyuta əməliyyatları üzrə xalis gəlir/(xərc) | 22 | (9,759,804) | (11) |
| Haqq və komissiya xərcləri | 23 | (235,449) | (166,161) |
| Köhnəlmə və amortizasiya | 9,10 | (420,356) | (449,473) |
| İnzibati və digər əməliyyat xərcləri | 24 | (2,372,179) | (1,923,199) |
| Derivativ maliyyə alətlərindən gəlir | 12 | 1,282,000 | |
| Digər gəlirlər | 25 | 303,663 | 525,127 |
| **Xalis Qeyri-faiz gəlirləri** | | **( 14,514,579)** | **(5,653,899)** |
| **Mənfəət vergisindən əvvəl gəlir** | | **(10,721,132)** | **2,363,762** |
| Mənfəət vergisi xərci | 26 | - | (407,009) |
| **İL ÜZRƏ XALİS (XƏRC)/GƏLİR** | | **(10,721,132)** | **1,956,753** |
| **İL ÜZRƏ CƏMİ MƏCMU (XƏRC)/GƏLİR** | | **(10,721,132)** | **1,956,753** |

**İdarə Heyəti adından:**

**Məcid Əsədov,**
**Direktor**

25 aprel 2016
Bakı, Azərbaycan

**Mahmud Qasımov**
**Maliyyə Departamentinin direktoru**

25 aprel 2016
Bakı, Azərbaycan

8-51-ci səhifələrdə verilmiş qeydlər maliyyə hesabatlarının tərkib hissəsini təşkil edir.

## SƏHMDAR KAPİALINDA DƏYİŞİKLİKLƏR HESABATI
## 31 DEKABR 2015-Cİ İL TARİXİNƏ BİTƏN İL ÜZRƏ

| *Azərbaycan Manatı ilə* | Nizamnamə Kapitalı | Kapital Ehtiyatları | Bölüşdürülməmiş Mənfəət | Cəmi Kapital |
|---|---|---|---|---|
| **31 Dekabr 2013-cü ilə Cəmi Səhmdar Kapitalı** | **452,300** | **1,593,963** | **10,950,659** | **12,996,922** |
| Nizamnamə kapitalına artım | - | - | - | - |
| Adi səhmlər üzrə bəyan edilmiş dividendlər | - | - | - | - |
| İl üzrə cəmi məcmu gəlir | - | - | 1,956,753 | **1,956,753** |
| **31 Dekabr 2014-cü ilə Cəmi Səhmdar Kapitalı** | **452,300** | **1,593,963** | **12,907,412** | **14,953,675** |
| Nizamnamə kapitalına artım | - | - | - | - |
| Adi səhmlər üzrə bəyan edilmiş dividendlər | - | - | (195,675) | **(195,675)** |
| İl üzrə cəmi məcmu zərər | - | - | (10,721,132) | **(10,721,132)** |
| **31 Dekabr 2015-ci ilə Cəmi Səhmdar Kapitalı** | **452,300** | **1,593,963** | **1,990,605** | **4,036,868** |

**İdarə Heyəti adından:**

**Məcid Əsədov,**
**Direktor**

25 aprel 2016
Bakı, Azərbaycan

**Mahmud Qasımov**
**Maliyyə Departamentinin direktoru**

25 aprel 2016
Bakı, Azərbaycan

8-51-ci səhifələrdə verilmiş qeydlər maliyyə hesabatlarının tərkib hissəsini təşkil edir.

## PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HESABATI
## 31 DEKABR 2015-Cİ İL TARİXİNƏ BİTƏN İL ÜZRƏ

| *Azərbaycan Manatı ilə* | Qeyd | 31 Dekabr 2015 | 31 Dekabr 2014 |
|---|---|---|---|
| **ƏMƏLİYYAT FƏALİYYƏTİ İLƏ BAĞLI OLAN PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ:** | | | |
| Mənfəət vergisindən əvvəl (xərc)/gəlir | | **(10,721,132)** | **2,363,762** |
| Qeyri pul maddələri üzrə düzəlişlər: | | | |
| Köhnəlmə və amortizasiya xərcləri | 9,10 | 420,356 | 449,473 |
| Faiz gətirən aktivlər üzrə ehtimal olunan zərər üçün ehtiyatlar | 20 | 3,751,372 | 133,043 |
| Silinmiş aktivlər | 20 | (2,278,660) | |
| Faiz gətirəməyən aktivlər üzrə (bərpa olunma)/ehtimal edilən zərər | | (32,201) | - |
| Derivativ maliyyə alətlərindən gəlir | | (1,282,000) | - |
| Əmlak və Avadanlıqların satışından yaranan gəlir | | (13,990) | (27,749) |
| Əsas vəsaitlərin satışından yaranan (zərər)/gəlir | | 15,077 | (66,467) |
| Xarici valyuta əməliyyatları üzrə zərər | 22 | 9,759,804 | 11 |
| Hesablanmış faizlərdə dəyişikliklər, xalis | 8,15 | 1,117,998 | (63,771) |
| **Əməliyyat aktivlərində dəyişikliklərdən əvvəl əməliyyat mənfəəti** | | **736,624** | **2,788,302** |
| **Əməliyyat aktiv və öhdəliklərində dəyişikliklər:** | | | |
| Müştərilərə verilmiş kreditlər | 8 | (979,011) | (3,083,071) |
| Digər aktivlər | 11 | (147,429) | (240,014) |
| Digər öhdəliklər | 16 | 23,391 | (127,880) |
| Satılanadək saxlanılan uzunmüddətli aktivlər | | 46,021 | 204,277 |
| **Əməliyyat aktiv və öhdəliklərində dəyişikliklər** | | **(1,057,028)** | **(3,246,688)** |
| **Əməliyyat fəaliyyətindən daxil olan xalis pul vəsaitləri, mənfəət vergisi və faizlərdən əvvəl** | | **(320,404)** | **(458,386)** |
| Ödənilmiş mənfəət vergisi | | (609,769) | (561,364) |
| **Əməliyyat fəaliyyətinə yönəldilmiş xalis pul vəsaitləri** | | **(930,173)** | **(1,019,750)** |
| **İNVESTİSİYA FƏALİYYƏTİ İLƏ BAĞLI OLAN PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ:** | | | |
| Əmlak və avadanlığın və qeyri-maddi aktivlərin alınması | 9,10 | (343,649) | (318,301) |
| Əmlak və avadanlığın satılmasından daxil olan vəsaitlər | 9,10 | 37,488 | 66,326 |
| Banklar və digər maliyyə institutlarından alınacaq vəsaitlər | 7 | 5,746,400 | (3,136,900) |
| **İnvestisiya fəaliyyətindən daxil/(xaric) olan xalis pul vəsaitləri:** | | **5,440,239** | **(3,388,875)** |
| **MALİYYƏLƏŞDİRMƏ FƏALİYYƏTİ İLƏ BAĞLI OLAN PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ:** | | | |
| Uzunmüddətli borclarda artma/(azalma) | 15 | (4,337,998) | 4,241,175 |
| Ödənilmiş dividentlər | | (195,675) | |
| **Maliyyələşdirmə fəaliyyətindən xaric/(daxil)olan xalis pul vəsaitləri** | | **(4,533,673)** | **4,241,175** |
| Məzənnə fərqlərinin pul və pul vəsaitlərinə təsiri | | (126,812) | (11) |
| **PUL VƏ PUL VƏSAİTLƏRİNDƏ XALİS AZALMA** | | **(150,419)** | **(167,461)** |
| **PUL VƏ PUL VƏSAİTLƏRİ, İlin əvvəlinə** | 6 | **897,125** | **1,064,586** |
| **PUL VƏ PUL VƏSAİTLƏRİ, İlin sonuna** | 6 | **746,706** | **897,125** |

**İdarə Heyəti adından:**

**Məcid Əsədov,**
**Direktor**

25 aprel 2016
Bakı, Azərbaycan

**Mahmud Qasımov**
**Maliyyə Departamentinin direktoru**

25 aprel 2016
Bakı, Azərbaycan

8-51-ci səhifələrdə verilmiş qeydlər maliyyə hesabatlarının tərkib hissəsini təşkil edir.

## 1. GİRİŞ

"Kredaqro" Qapalı Səhmdar Cəmiyyəti Bank Olmayan Kredit Təşkilatı ("Təşkilat") Azərbaycan Respublikasında iqtisadiyyatın müxtəlif sektorlarına kreditlərin verilməsi fəaliyyəti ilə məşğuldur. Təşkilat, 28 avqust 2000-ci il tarixində Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq təsis edilmişdir.

Təşkilatın təsisçisi, Amerika Birləşmiş Ştatlarının qanunlarına müvafiq olaraq qeydiyyatdan keçən və fəaliyyət göstərən, "ACDI/VOCA" müəssisəsidir və bu müəssisə, Təşkilatın nizamnamə kapitalının 100%-ə malikdir.Təşkilatın ilkin məqsədi kənd təsərrüfatı sektorunda fəaliyyət göstərən fiziki şəxsləri kiçik və mikro kreditlərlə təmin etmək olmuşdur.

Təşkilat Həsən Əliyev küçəsi 63, Bakı şəhəri, Azərbaycan Respublikası ünvanında yerləşir.

Təşkilat, Birləşmiş Ştatların Beynəlxalq İnkişaf üzrə Agentliyinin ("USAİD") ACDI/VOCA-ya 5,314,205 ABŞ dolları (4,168,462 AZN) məbləğində Azərbaycan Kənd Krediti Layihəsinə dəstək göstərmək məqsədilə verilmiş qrantın nəticəsində təsis edilmişdir. Təşkilatın fəaliyyəti, Azərbaycan Respublikası Mərkəzi Bankı ("ARMB") tərəfindən tənzimlənir və Təşkilata verilmiş 28 avqust 2006-cı il tarixli 06/06-1891 lisenziya əsasında fəaliyyət göstərir. Təşkilatın əsas fəaliyyəti kreditlərin verilməsindən ibarətdir..

ACDI/VOCA-nın 15 aprel 2010-cu il tarixli qərarına əsasən Təşkilatın hüquqi təşkilati strukturu və adı "CredAgro" Məhdud Məsuliyyətli Qeyri-Bank Kredit Təşkilatından "Kredaqro" Qapalı Səhmdar Cəmiyyəti Bank Olmayan Kredit Təşkilatına dəyişdirilmişdir. 28 Sentyabr 2010-cu ildə Təşkilatın yenilənmiş nizamnaməsi qeydiyyatdan keçmişdir.

## 2. HESABATLARIN UYĞUNLUĞUNUN BƏYANI

**Hesabatların uyğunluğunun bəyanı**
Təşkilatın hazırkı maliyyə hesabatları Beynəlxalq Mühasibat Standartları Şurası tərəfindən dərc edilmiş Beynəlxalq Maliyyə Hesabatları Standartları ("BMHS") və Beynəlxalq Maliyyə Standartlarına Şərhlər Komitəsi ("BMHSŞK") tərəfindən dərc edilmiş şərhlər əsasında hazırlanmışdır.

**Təşkilatın Əməliyyat Mühiti**

**Azərbaycan Respublikası.**Neft ixrac edən bir ölkə kimi və neftin dövlət büdcəsinin həcmi, eləcə də dəyəri etibarı ilə əsas paya sahib olduğu üçün Azəbaycan iqtisadiyyatı neftin dəyərindən əhəmiyyətli dərəcədə asılıdır.Bu səbəbdən sözügedən sahənin qiymətlərində yaranan fərqlər iqtisadiyyat üzərində böyük təsirə malikdir və neftin dəyərindəki kəskin dəyişikliklər valyuta dəyərdəndüşməsi, iqtisadiyyat və sənaye sahələrinin inkişafında ləngimələr, həmçinin pul vəsaitlərinin dövriyyəsində yaranan qeyri-sabitlik kimi bu və ya digər makroiqtisadi faktorların mövcudluğuna gətirib çıxarır.

2008-2009-cu illərin sonu qlobal maliyyə böhranından sonra beynəlxalq bazarda neftin qiymətinin aşağı enməsi neft ixrac edən ölkələrin iqtisadiyyatı üçün ən böyük təhlükə hesab olunmaqdadır. 2014-cü ilin iyun ayının ortalarından etibarən neftin qiymətində qəfil enmə müşahidə olunmağa başlamışdır və bu birbaşa neft istehsal edən ölkələrə, eləcə də Azərbaycana öz təsirini göstərir.Qeyd olunan hadisələr də öz növbəsində neft sahəsindəki gəlirlərin və dolayısı ilə illik büdcə gəlirlərinin azalması, neft istehsalatının aşağı enməsi və bu sahədə aparılan əməliyyatların dayandırılması ilə nəticələnir. Neftin dəyərindəki azalma uzun müddət davam edərsə, iqtisadiyyatın genişləndirilməsində uzunmüddətli geriləmələr, bank və daşınmaz əmlak kimi müttəfiq sahələrə mənfi təsirlərlə nəticələnəcəkdir.

Azərbaycan hökuməti büdcə gəlirlərinin aşağı enməsinin qarşısını almaq məqsədilə dövlət xərclərinin azaldılmasını deyil, alternativ maliyyə mənbələrindən istifadə edilməsini hədəfləyir. Azərbaycan

Respublikasının Mərkəzi Bankı beynəlxalq valyuta bazarında rəqabət qabiliyyətini qoruyub saxlamaq məqsədilə, valyuta siyasətini dəyişərək 21 Fevral 2015-ci il tarixli mətbuat bəyanatı ilə Azərbaycan manatının dəyərinin ABŞ dollarına nisbətdə 34% və 21 Dekabr 2015-ci il tarixli mətbuat bəyanatı ilə 48% endirilməsi haqqında qərarını açıqlamışdır. Mərkəzi Bankın bu müdaxilə siyasəti iqtisadiyyatın yeni tarazlıq səviyyəsinə çatdırılması üçün atılan bir addımdır və onun təsiri iqtisadiyyatın tarazlıq səviyyəsi bərpa olunanadək, bu maliyyə hesabatlarının imzalandığı tarixə qədərki dövr üçün qeyri-müəyyən olaraq qalır.

Neft böhranı neft və enerji sektorunun maliyyə və likvidlik mövqelərinə əhəmiyyətli dərəcədə təsirini göstərir, bu isə öz növbəsində həmin sahələrə kreditlərin ayrılmasındakı çətinliklərə, həmçinin mövcud borcların ödənilmə qabiliyyətinin aşağı enməsinə gətirib çıxara bilər. Müəssisələrin əməliyyat şəraitinin zəifləməsi rəhbərliyin pul vəsaitlərinin hərəkəti ilə bağlı proqnozlarına, maliyyə və qeyri-maliyyə aktivlərinin dəyərsizləşməsi üzrə qiymətləndirmə proseslərinə mənfi təsirini göstərməsi də ehtimal olunur. Mümkün əldə edilə bilən məlumatlar əsasında rəhbərlik dəyərsizləşmə üzrə qiymətləndirmələrində gələcək dövrün pul vəsaitlərinin hərəkəti ilə bağlı yenilənmiş təxminlərdən istifadə etmişdir.

Makroiqtisadi amillərin gözlənilən dəyişiklikləri səbəbindən rəhbərlik bu dəyişikliklərin Şirkətlər Qrupunun əməliyyatları üzərində təsirini dəqiq qiymətləndirmək və yarana biləcək nəticələrlə bağlı hər hansı bir ölçü götürmək iqtidarında deyil. Rəhbərlik, mövcud şəraitdə Şirkətlər Qrupunun fəaliyyətinin davamlılığını və inkişafını təmin etmək üçün bütün lazımi tədbirlərin görüldüyünü hesab edir.

## 3. DAVAMLI FƏALİYYƏT PRİNSİPİ

Maliyyə hesabatlarının 2 saylı Qeydi Təşkilatın əməliyyat mühitində göstərildiyi kimi, kreditorlarla, uyğunsuzluq təşkil etməsi defolt yarada biləcək, maliyyə şərtlərinin əksəriyyəti, 31 dekabr 2015-ci il tarixinə pozulmuşdur. Bu riskləri nəzərə alaraq Səhmdar və Rəhbərliklə kreditorlar arasında borcların dayandırılması və yenidən restrukrizasiyasına dair danışıqlar həyata keçirilmişdir.

Həmçinin, müştərilər üçün əməliyyat şəraitinin pisləşməsi Rəhbərliyin pul vəsaitlərinin hərəkətinə dair proqnozları, maliyyə və qeyri-maliyyə aktivlərinin dəyərsizləşməsinin qiymətləndirilməsinə təsir edə bilər. Məlumatın mövcud olduğu təqdirdə, rəhbərlik dəyərsizləşmənin qiymətləndirilməsində yenidən hesablanmış gözlənilən gələcək pul vəsaitlərinin hərəkətini əks etdirmişdir. Bu faktlar səbəbindən Rəhbərlik 2016-cı ildən 2018-ci ilə qədər dövrü əhatə edən və özündə aşağıdakıları əks etdirən maliyyə planı hazırlayıb həyata keçirmək niyyətindədir:

- 2016-2018-ci illər üçün kreditlərin yenidən restrukrizasiyası;
- Borc öhdəliklərinin qismən və rüblük ödənilməsi və bəzi məbləğlərin 2018-ci ildən sonraya təxirə salınması

22 aprel 2016-cı il tarixində, Rəhbərlik kreditorlarla 30 iyun 2016-cı il tarixindən gec olmayaraq Tərəflərin qəti, icrası məcburi həyata keçirilməli olan kreditorlararası sazişi ilə nəticələnəcək Anlaşma Memorandumu (bundan sonra "Memorandum") imzalamışdır. Tərəfdaş Kreditorlar KredAqro-ya Səhmdar ACDI VOCA tərəfindən müəyyən edilən tələblər əsasında planlaşdırılmış ödənişlər üçün vaxt və digər güzəştlərin edilməsinə razılıq vermişdirlər.

Memoranduma uyğun olaraq, hər bir tərəfdaş Kreditor 31 May 2016-cı il tarixindən etibarən kreditin əsas məbləği üzrə faiz dərəcəsinin hesablanmasını dayandıracaq. Sənəddə həmçinin Təşkilatın cari əməliyyatları ilə əlaqəli olan əsas məbləğlər üzrə yenidən təyin olunmuş ödənişlər də öz əksini tapır. Rəhbərlik inanır ki, kreditorlar Təşkilatın maliyyə cəhətdən restrukrizasiyasına dəstəyi davam etdirəcək və onlar maliyyə planını bütövlükdə tətbiq etməyə nail olacaqlar. Bütün bunlara əsaslanaraq maliyyə hesabatlarının davamlı fəaliyyət prinsipi əsasında hazırlanması məqsədə uyğun hesab olunur.

## 4. MÜHÜM MÜHASİBAT PRİNSİPLƏRİ

**Faiz gəlir və xərclərinin tanınması**
Faiz gəlir və xərcləri effektiv faiz metodundan istifadə etməklə hesablama üsuluna əsasən qeydə alınır.Effektiv faiz metodu, maliyyə aktiv və öhdəliklərinin (eləcə də maliyyə aktivləri və öhdəlikləri qrupunun)amortizasiya edilmiş maya dəyərinin hesablanmasını faiz gəlir və xərclərinin müvafiq dövrlər üzrətanınmasını nəzərdə tutur.

Effektiv faiz dərəcəsi maliyyə alətinin təxmin edilmiş istifadə müddəti üzrə təxmin edilən gələcək ödəniləcək və ya alınacaq vəsaitləri (o cümlədən effektiv faiz dərəcəsinin tərkib hissəsi sayılan müvafiq ödənilən və alınan haqq və komissiyalar, əməliyyat xərcləri, eləcə də digər diskont və mükafatlar) və ya müvafiq olduqda, daha qısa müddət üzrə maliyyə aktivlərinin və ya maliyyə öhdəliklərinin qalıq dəyərini dəqiq diskontlaşdıran dərəcədir.

Köhnəlmə nəticəsində maliyyə aktivi hesabdan silinirsə (qismən silinirsə), belə aktivlər üzrə faiz gəliri sonradan mümkün zərərlərin qiymətləndirilməsi üçün istifadə edilmiş effektiv faiz dərəcəsi nəzərə alınmaqla gələcək pul vəsaitləri hərəkətinin diskontlaşdırılması üzrə istifadə edilən faiz dərəcəsinin tətbiq edilməsi ilə tanınır.

**Haqq və komissiya gəlir və xərclərinin tanınması**
Kreditin verilməsi ilə bağlı yaranan komissiyalar, bununla əlaqədar olan birbaşa xərclərlə birlikdətəxirə salınır və kreditlər üzrə effektiv faiz dərəcəsinə dair düzəliş kimi təqdim edilir.Kreditöhdəliyinin kredit müqaviləsinə keçirilməsi mümkün olduqda kredit öhdəliyi ilə bağlı komissiyalarvə bununla əlaqədar olan birbaşa xərclərlə birlikdə təxirə salınaraq yekun kredit üzrə effektiv faizdərəcəsinə dair düzəliş kimi tanınır.Kredit öhdəliyinin kredit müqaviləsinə keçirilməsi mümkünolmadıqda kredit öhdəliyi ilə bağlı komissiyalar kredit öhdəliyinin qalıq müddəti üzrə mənfəət vəzərər hesablarında tanınır.

Kreditin verilməsi haqqında öhdəliyin müddəti başa çatdıqda və buöhdəlik kredit müqaviləsi ilə əvəzolunmadıqda kredit öhdəliyi haqqı məcmu gəlir hesabatındatanınır.Kredit xidmətləri üzrə haqlar, xidmətlər görülən zaman gəlir kimi tanınır.Bütün digər haqqvə komissiyalar xidmətlərin göstərilməsi zamanı tanınır.

**Maliyyə alətləri**
Təşkilat müqaviləyə əsasən maliyyə aləti üzrə öhdəlik daşıyan tərəfə çevrildiyi zaman maliyyəaktivini və ya öhdəliyini maliyyə vəziyyəti hesabatında tanıyır.Maliyyə aktivlərinin və öhdəliklərinin adiyolla alınması və satılması zamanı hesablaşma tarixində əməliyyat müvafiq olaraq tanınır.

Maliyyə aktivləri və öhdəlikləri ilkin olaraq ədalətli dəyərlə ölçülür.İlkin tanınma zamanı, maliyyəaktivləri və öhdəliklərinin satın alınması və ya yerləşdirilməsi ilə bağlı bütün birbaşa əməliyyatxərcləri (mənfəət və zərər hesabına tanınan maliyyə aktiv və öhdəlikləri istisna olmaqla) müvafiqolaraq maliyyə aktivinin ədalətli dəyərindən azaldılır və ya maliyyə öhdəliyinin ədalətli dəyərinəəlavə edilir.Mənfəət və zərər hesabına tanınan maliyyə aktiv və öhdəliklərinin satın alınması və yayerləşdirilməsi ilə bağlı birbaşa əməliyyat xərcləri dərhal mənfəət və zərər hesablarında tanınır.

**Maliyyə aktivləri**
Maliyyə aktivləri aşağıdakı xüsusi kateqoriyalara ayrılırlar: "mənfəət və zərər hesabına ədalətlidəyərlə tanınan" maliyyə aktivləri (MZHƏDT), "ödəniş tarixinədək saxlanılan" investisiyalar,satılabilən maliyyə aktivləri (SMA) və "verilmiş kreditlər və debitor borcları". Təsnifləşdirməmaliyyə aktivinin növündən və saxlama məqsədindən asılıdır və ilkin tanınma zamanı təyin edilir.

## 4. MÜHÜM MÜHASİBAT PRİNSİPLƏRİ (Davamı)

**MZHƏDT maliyyə aktivləri**
Ticarət məqsədləri ilə saxlanılan maliyyə aktivləri, "mənfəət və zərər hesabına ədalətli dəyərlətanınan maliyyə aktivləri" kateqoriyasına aid edilirlər.Yaxın gələcəkdə satılması nəzərdə tutulduqda,əldə edilən maliyyə aktivləri satış məqsədləri ilə saxlanılan aktivlər kateqoriyasında təsnifləşdirilir.Törəmə maliyyə alətləri də xüsusilə nəzərdə tutulmuş alətlər və effektiv hecinq alətləri istisnaolmaqla, satış məqsədləri ilə saxlanılan aktivlər kateqoriyasında təsnifləşdirilir.Satış məqsədləri iləsaxlanılan aktivlər üzrə yaranan mənfəət və zərərlər müvafiq olaraq mənfəət və zərər hesabındatanınır.

**Verilmiş kreditlər və debitor borcları**
Verilmiş kreditlər və debitor borcları, maliyyə hesabatlarının digər kateqoriyaları üzrətəsnifləşdirilən aktivlərdən fərqli olaraq sabit və ya müəyyən edilən ödənişli və fəal bazaar çıxarılmayan qeyri-törəmə aktivlərdir.Bu aktivlərə vəsait qoyularkən məqsəd dərhal və ya qısamüddət ərzində onların satılması deyil və bu aktivlər nə ticarət məqsədləri ilə saxlanılan maliyyəaktivlərinə, nə də satılabilən maliyyə aktivləri kateqoriyalarına aid edilmir. Bu tip aktivlər effektivfaiz metodundan istifadə etməklə amortizasiya olunmuş maya dəyəri ilə qeydə alınır.Kreditlərin və debitor borclarının tanınmasına xitam verilməsi, onların dəyərində ehtimal edilənazalmalar yaranması, eləcə də onların dəyərsizləşməsi nəticəsində yaranan mənfəət və zərərlərmüvafiq olaraq mənfəət və zərər hesablarında tanınır.

**Ədalətli dəyərin təyin edilməsi**
Hesabat tarixində aktiv bazarlarda satılan maliyyə alətlərinin ədalətli dəyəri onların bazaar katirovkaları və ya dilerlər tərəfindən verilən qiymət katirovkalarıdır (uzun mövqelər üçün satışdəyəri, qısa mövqelər üçün isə alış dəyəri).Aktiv bazarlarda katirovkası mövcud olmayan bütün digər maliyyə alətləri üçün ədalətli dəyərmüvafiq qiymətləndirmə texnikalarının tətbiq edilməsi ilə təyin edilir.Qiymətləndirmə texnikalarınaxalis cari dəyər texnikası, müşahidə edilə bilən oxşar maliyyə alətləri ilə müqayisələrin aparılması,opsiya qiymətləndirilməsi modelləri və digər müvafiq qimətləndirmə modelləri aid edilir.

**Pul və pul ekvivalentləri**
Pul və pul ekvivalentləri elə aktivlərə deyilir ki, onları nağd vəsaitlərə istənilən zaman tez bir şəkildəçevirmək mümkün olsun və bu zaman onların dəyərində çox cüzi bir fərq baş versin. Overnaytdepozitləri istisna olmaqla, bütün qısamüddətli banklararası vəsaitlər, digər banklardan alınacaqvəsaitlərdə təsnif edilmişdir.İstifadə məhdudiyyəti olan vəsaitlər isə pul və pul ekvivalentlərinə daxiledilməmişdir.Pul və pul ekvivalentləri amortizasiya olunmuş ilkin dəyər ilə ölçülür.

**Banklardan alınacaq vəsaitlər**
Banklardan alınacaq vəsaitlər, Təşkilatın ödəmə tarixi əvvəlcədən təsbit edilmiş və ya müəyyənedilməsi mümkün olan, bazar katirovkası mövcud olmayan qeyri-derivativ maliyyə aktivininyaranması ilə nəticələnən pul vəsaitlərinin qarşı tərəfə ötürülməsi zamanı tanınır.Banklardanalınacaq vəsaitlər amortizasiya olunmuş ilkin dəyərlə təqdim edilir.

**Müştərilərə verilmiş kreditlər**
Müştərilərə verilmiş kreditlər maliyyə hesabatlarının digər kateqoriyalar üzrə təsnifləşdirilənaktivlərdən fərqli olaraq sabit və ya müəyyən ödəniş qrafikinə malik və fəal bazara çıxarılmayan qeyritörəməaktivlərdir.

## 4. MÜHÜM MÜHASİBAT PRİNSİPLƏRİ (Davamı)

Təşkilat tərəfindən verilmiş kreditlər ilk olaraq ədalətli dəyər və əməliyyat üzrə aid olduğu xərclərhəcmində tanınır.Hesablanmış ədalətli dəyər kreditin ədalətli dəyərinə bərabər olmadıqda, missal üçün, kredit bazar qiymətindən aşağı dəyərlə verildikdə, hesablanmış ədalətli dəyərlə kreditinədalətli dəyəri arasındakı fərq kreditin ilkin tanınması üzrə zərər kimi qeydə alınır və bu zərərinxüsusiyyətinə uyğun olaraq məcmu gəlir hesabatına daxil edilir.Daha sonra, kreditlər effektiv faizmetodundan istifadə etməklə amortizasiya olunmuş maya dəyəri ilə qeydə alınır.Müştərilərəverilmiş kreditlər ehtimal edilən zərərlər üzrə bütün ehtiyatlar çıxılmaqla uçota alınır.

**Maliyyə alətlərinin yenidən təsnifləşdirilməsi**
Əgər ticarət məqsədi ilə saxlanılan qeyri-derivativ maliyyə alətinin yaxın gələcəkdə satılması məqsədi aktuallığını itirirsə bu zaman belə maliyyə alətləri mənfəət və zərər hesabına ədalətli dəyərlə tanınan maliyyə aktivləri kateqoriyasından çıxarılaraq aşağıdakı kateqoriyalardan birinə yenidən daxil olunur:

- Əgər maliyyə aktivi verilmiş kreditlər və debitor borcları kateqoriyasının təyinatına uyğundursa bu zaman, Təşkilatın bu aləti yaxın gələcəkdə və ya müddəti bitənədək saxlamaq niyyəti və imkanı varsa onu kreditlər və debitor borclar kateqoriyasına yenidən daxil edə bilər;
- Digər maliyyə aktivləri adətən satılabilən invesitisiyalar kateqoriyasına və nadir hallarda ödəniş tarixinədək saxlanılan investisiyalar kateqoriyasına daxil oluna bilər.

Əvvəlcədən satılabilən invesitisiyalar kateqoriyasına aid edilmiş maliyyə aləti verilmiş kreditlər və debitor borcları kateqoriyasının təyinatına uyğun gəldikdə və Təşkilatın bu aləti yaxın gələcəkdə və ya müddəti bitənədək saxlamaq niyyəti və imkanı yarandıqda, Təşkilat onu verilmiş kreditlər və debitor borclar kateqoriyasına yenidən daxil edə bilər.

Maliyyə alətləri yenidən təsnif olunduqda onların ədalətli dəyərindən istifadə edilir.Bu alətlərə aid daha əvvəllər mənfəət və zərər hesablarında tanınmış mənfəət və zərərlər geri qaytarılmır.Maliyyə alətinin ədalətli dəyəri yenidən təsnifləşdirmə tarixində müvafiq olaraq onun yeni maya dəyərinə və ya amortizasiya olunmuş maya dəyərinə çevrilir.

**Maliyyə aktivlərinin dəyərsizləşməsi**
Hər bir hesabat tarixində Təşkilat maliyyə aktivinin və ya maliyyə aktivləri qrupunundəyərsizləşməsi halının baş verməsinin obyektiv sübutunun olub-olmamasını dəyərləndirir. Əgərmaliyyə aktivinin və ya maliyyə aktivləri qrupunun dəyərsizləşməsi ehtimal edilirsə və yalnız ilkintanınma tarixindən sonra baş vermiş bir və ya bir neçə hadisə nəticəsində dəyərsizləşmənin obyektivsübutu yaranmışdırsa (baş vermiş "zərər hadisəsi") və zərər hadisəsi (və ya hadisələri) bu maliyyəalətləri və ya maliyyə alətləri qrupu üzrə təxmin edilən gələcək pul vəsaitlərinin axınına təsirgöstərirsə və bu təsirin etibarlı şəkildə təxmin edilməsi mümkündürsə bu zaman belə maliyyəaktivləri və ya maliyyə aktivləri qrupu dəyərsizləşmiş sayılır. Dəyərsizləşmənin sübütu kimi borcgötürənin və ya borc götürənlər qrupunun əhəmiyyətli maliyyə çətinlikləri ilə üzləşməsi, faiz və əsasborcların ödənilməməsi və ya ödənilməsində gecikmələrin yaranması, müştərilərin iflas etməsi və yadigər yenidən təşkilati strukturun dəyişdirilməsi və bu zaman təxmin edilən gələcək pul vəsaitlərininazalmasına dair konkret məlumatın olması ehtimalının yaranması, məsələn borcun ödənilməməsindəşəraitin və iqtisadi şərtlərin dəyişməsi halları götürülə bilər.

**Amortizasiya olunmuş maya dəyərində tanınmış aktivlər**
Maliyyə aktivlərinin və ya aktivlər qrupunun dəyərində azalma yaranması ilə bağlı rəhbərliyin əlində hər hansı bir obyektiv sübut olduğu hallarda Təşkilat bu aktivlər üzrə itkiləri qarşılamaq məqsədiləehtiyat yaradır. Ehtimal edilən itkilər, gələcəkdə zəmanət və alınan girovlar da daxil olmaqla,amortizasiya olunmuş ilkin dəyərində ölçülən aktivlər üzrə gələcəkdə əldə edilə biləcək pulvəsaitlərinin, effektiv faiz dərəcəsindən istifadə edilərək diskont edilməsi nəticəsində yaranmış dəyərləbu aktivlərin qalıq dəyəri arasındakı fərq kimi hesablanır.

## 4. MÜHÜM MÜHASİBAT PRİNSİPLƏRİ (Davamı)

Daha sonrakı dövrdə dəyərsizləşmə zərərinin azalması və bu azalmanın obyektiv olaraqdəyərsizləşmə zərərinin tanınmasından sonra baş vermiş hadisəyə aid edilməsi, məsələn bərpaolunma halları, istisna olmaqla belə dəyərsizləşmə zərərləri geriyə qaytarılmır.Dəyərsizləşməzərərinin qaytarılması halında gələcək dövrdə ehtiyat hesabına düzəliş verilir.İlkin dəyər ilə ölçülən maliyyə aktivləri üçün isə ehtimal edilən itkilər, bu aktivlərdən gələcəkdə əldəedilə biləcək pul vəsaitlərinin bu tip aktivlər üzrə mövcud bazar faiz dərəcəsindən istifadə edərəkdiskont edilməsi nəticəsində yaranmış dəyərlə bu aktivlərin qalıq dəyəri arasındakı fərq kimihesablanır. Bu tip ehtiyatlar yaradıldıqdan sonra geri qaytarılmır.

**Verilmiş kreditlərin və avansların silinməsi**
Verilmiş kreditlər və avanslar qaytarılması mümkün olmadıqda dəyərsizləşmə üzrə yaradılmış olanehtiyatların hesabına maliyyə vəziyyəti hesabatından silinirlər.Verilmiş kreditlər və avanslarrəhbərliyin krediti qaytarmaq üçün bütün cəhdlərindən və mövcud olan bütün girovların satılmasındasonra Təşkilata olan borcun qaytarılması mümkün olmadıqda silinir.Növbəti dövrlərdə əvvəlcədənsilinmiş kreditlər üzrə əldə edilən vəsaitlər həmin dövrlərdə maliyyə aktivləri üzrə ayrılanehtiyyatlarla əvəzləşdirilir və mənfəət və zərər hesablarında tanınır.

**Maliyyə aktivlərin uçotunun xitamı**
Təşkilat maliyyə aktivi müqaviləsi üzrə pul vəsaitlərinin alınması hüququnun başa çatması və yamaliyyə aktivi, eləcə də sahiblik hüququ ilə bağlı bütün əhəmiyyətli risk və mükafatların digər tərəfəötürülməsi halında maliyyə aktivinin tanınmasına xitam verir. Təşkilat sahiblik hüququ ilə bağlıbütün əhəmiyyətli risk və mükafatların digər tərəfə ötürdükdə belə transfer edilmiş aktiv üzərindənəzarəti saxlayırsa, bu zaman saxlanılmış maraqlar maliyyə vəziyyəti hesabatında aktiv kimi tanınırvə müvafiq şəraitdə Təşkilatın ödənilməsi ehtimal edilən məbləğlər də müvafiq olaraq öhdəlik kimitanınır. Əgər Təşkilat transfer edilən maliyyə aktivinin sahiblik hüququ ilə bağlı bütün əhəmiyyətlirisk və mükafatları özündə saxlayırsa, bu zaman aktivin tanınması davam edir və əlavə olaraq girovqoyularaq götürülmüş vəsaitlər də borc məbləği kimi maliyyə vəziyyəti hesabatında tanınır.

Maliyyə aktivi tam şəkildə silindikdə, aktivin qalıq dəyəri ilə onun transferindən alınan və ya alınması nəzərdə tutulan məbləğlərin cəmi arasındakı fərq, məcmu gəlir hesabında xitam anınadək tanınmış və kapital hesablarında uçotu aparılan mənfəət və zərər məbləğləri dərhal mənfəət və zərər hesablarında tanınır.

Maliyyə aktivi qismən silindikdə (məsələn, Təşkilatın transfer edilmiş aktivin bir hissəsini geri almaq seçimi olduqda və ya bu aktiv üzrə sahiblik hüququ ilə bağlı bütün əhəmiyyətli risk və mükafatların digər tərəfə ötürülərək yalnız cüzi bir hissənin saxlanılması və bunun nəticəsində nəzarətin Təşkilatda qalması halları), Təşkilat aktivin qalıq dəyərini cari iştirak ilə bağlı tanınması davam edən qism və transfer edilən hissələrin nisbi ədalətli dəyərinə görə təyin edilmiş və maliyyə vəziyyəti hesabatında tanınmayan qismdən ibarət iki hissəyə ayırır. Aktivin tanınmasına xitam verilmiş qisminə aid edilən qalıq dəyəri ilə onun transferindən alınan məbləğlərin cəmi arasındakı fərq, məcmu gəlir hesabında xitam anınadək tanınmış mənfəət və zərər məbləğləri dərhal mənfəət və zərər hesablarında tanınır.

Məcmu gəlir hesabında tanınmış mənfəət və zərər məbləğlərini, aktivin tanınmasına xitam verilən qismi ilə tanınması davam edən qismi arasında bölərkən bu qismlərin ədalətli dəyərlərinin nisbətləri əsas götürülür.

**Maliyyə öhdəlikləri**
Maliyyə öhdəlikləri, "MZHƏD maliyyə öhdəlikləri" və "digər maliyyə öhdəlikləri" olmaqla iki hissəyəayrılır.

## 4. MÜHÜM MÜHASİBAT PRİNSİPLƏRİ (Davamı)

**Digər maliyyə öhdəlikləri**
Digər maliyyə öhdəlikləri ilkin olaraq bütün əməliyyat xərcləri çıxıldıqdan sonra ədalətli dəyər iləölçülür.

Digər maliyyə öhdəlikləri növbəti dövrlərdə effektiv faiz dərəcəsi metodundan istifadə olunmaqla amortizasiya edilmiş maya dəyərində ölçülür və faiz xərcləri effektiv gəlir kriteriyasına əsaslanaraq tanınır.

Effektiv faiz dərəcəsi metodu, maliyyə öhdəliyinin amortizasiya olunmuş maya dəyərinin hesablanılması və faiz xərci məbləğinin müvafiq dövrlər üzrə paylaşdırılmasını nəzərdə tutur.Bu metod maliyyəöhdəliyinin nəzərdə tutulan istifadə müddəti üzrə təxmin edilən gələcək ödəniləcək vəsaitləri və yamüvafiq olduqda, daha qısa müddət üzrə maliyyə öhdəliyinin qalıq dəyərini dəqiq diskontlaşdırandərəcədir.

**Subordinasiyalı borc öhdəlikləri**
Subordinasiyalı borc öhdəlikləri beynəlxalq maliyyə institutları qarşısında uzunmüddətli qeyriderivativ öhdəlikləri əks etdirir və amortizasiya edilmiş dəyərdə uçota alınır.Subordinasiyalı borc öhdəlikləri ləğv etmə zamanı bütün digər kreditor borclarından sonra ödənilir.

**Banklara və digər maliyyə qurumlarına ödəniləcək vəsaitlər**
Banklara ödəniləcək vəsaitlər, qarşı tərəflərin pul və ya digər bənzər aktivlərin Təşkilata ötürülməsizamanı maliyyə vəziyyəti hesabatında tanınır.Qeyri-törəmə öhdəliklər amortizasiya olunmuş mayadəyəri ilə ölçülür.Əgər Təşkilat öz borcunu satın alırsa, bu öhdəlik maliyyə vəziyyəti hesabatındansilinir və ödənilən vəsaitlə öhdəliyin qalıq dəyəri arasında olan fərq mənfəət və zərər hesablarındamüvafiq olaraq öhdəliklərin vaxtından tez icra edilməsinin nəticəsi kimi təqdim edilir.

**Maliyyə öhdəliklərinin tanınmasına xitam verilməsi**
Maliyyə öhdəliyinə yalnız bu öhdəliyin silinməsi, ləğv edilməsi və ya müddətinin başa çatmasıhallarında xitam verilir.Tanınmasına xitam verilmiş maliyyə öhdəliyinin qalıq dəyəri ilə ödənilmişvə ya ödəniləcək məbləğlərin cəmi arasındakı fərq dərhal mənfəət və zərər hesablarında tanınır.

**Maliyyə aktiv və öhdəliklərin əvəzləşdirilməsi**
Maliyyə aktivləri və öhdəlikləri yalnız aktiv və öhdəliklərin əvəzləşdirilməsi üçün müəyyən edilmiş hüquq olduqda və ya eləcə də müqavilə üzrə əvəzləşdirməni aparmaq və ya eyni zamanda aktivi realizasiya edərək öhdəliyi ödəmək niyyəti mövcud olduğu hallarda həyata keçirilə bilər. Maliyyə aktivlərinin müvəqqəti olaraq qarşı tərəfə transfer edilməsi zamanı bu maliyyə aktivləri qarşı tərəfin öhdəliyi ilə əvəzləşdirilmir.

**Əməliyyat icarəsi**
Əməliyyat icarəsi üzrə icarə ödənişləri icarə müddəti ərzində düz xətt üsulu ilə xərc kimi tanınır.Əgər hər hansı digər sistematik üsul istifadəçinin aktivdən əldə etdiyi səmərənin zaman sxemini daha aydın şəkildə təqdim etmək imkanını verirsə, onda həmin digər üsul istifadə olunmalıdır.Əməliyyat icarələri zamanı yaranan şərti icarə ödənişləri öhdəlik daşıdığı dövrdə xərc kimi tanınır.

İcarə stimulları əməliyyat icarələrinə daxil olmaq üçün alındığı təqdirdə, belə stimullar öhdəlik kimitanınır.Stimulların məcmu səmərəsi düz xətt üsulu ilə icarə ödənişinin azalması kimi tanınır.Əgərhər hansı digər sistematik üsul istifadəçinin aktivdən əldə etdiyi səmərənin zaman sxemini dahaaydın şəkildə təqdim etmək imkanını verirsə, onda həmin digər üsul istifadə olunmalıdır.

## 4. MÜHÜM MÜHASİBAT PRİNSİPLƏRİ (Davamı)

**Əmlak, avadanlıq və qeyri-maddi aktivlər**

Əmlak, avadanlıq və qeyri-maddi aktivlər, yığılmış amortizasiya və ehtimal edilən dəyər azalmaları üzrə ehtiyatlar çıxılmaqla tarixi dəyəri ilə tanınır. Faydalı iqtisadi ömür təxminləri, qalıq dəyərləri və köhnəlmə/amortizasiya metodları hər bir hesabat tarixində yenidən təhlil edilir və təxminlərdə olan dəyişikliklərin təsiri prospektiv olaraq aşağıdakı dərəcələrdə tətbiq edilir:

Binalar7%
Mebel və qurğular20%
Kompüter və rabitə avadanlıqları25%
Nəqliyyat vasitələri 25%
Qeyri-maddi aktivlər10%

Mülkiyyətdə olan torpaq amortizasiya olunmur.

Təmir və saxlama xərcləri baş verdiyi zaman tanınır və kapitalizasiya kriteriyalarına uyğun gəlməsihalları istisna olmaqla mənfəət və zərər hesablarında əməliyyat xərcləri kimi tanınır.

Ayrıca satın alınmış və müəyyən faydalı ömrü olan qeyri-maddi aktivlər yığılmış amortizasiya və ehtimal edilən dəyər azalmaları üzrə ehtiyatlar çıxılmaqla tarixi dəyəri ilə tanınır.Amortizasiya qeyrimaddi aktivlərin təxmin edilən faydalı ömrü ərzində düz xətt metodu ilə hesablanır.Faydalı ömür təxminləri və amortizasiya metodları hər bir hesabat tarixində yenidən təhlil edilir və təxminlərdə olan dəyişikliklərin təsiri prospektiv olaraq tətbiq edilir.Ayrıca satın alınmış və qeyri-müəyyən faydalı ömrü olan qeyri-maddi aktivlər isə ilkin dəyərindən dəyərsizləşmə zərərlərinin məbləği çıxıldıqdan sonra alınan məbləğdə tanınır.

Hər bir hesabat dövrünün sonunda Təşkilat öz əmlak, avadanlıq və qeyri-maddi aktivlərini dəyərsizləşmə zərərlərinin baş verməsini təyin etmək məqsədi ilə təhlil edir.Əgər belə hal mövcud olarsa bu aktiv üzrə əldə edilməsi mümkün olan məbləğ təyin edilir və dəyərsizləşmə zərərinin məbləği (əgər varsa) hesablanır.Fərdi aktiv üzrə əldə edilməsi mümkün olan məbləğin təyin edilməsi mümkün olmadıqda Təşkilat aktivin aid olduğu nağd pul əmələ gətirən biznes vahidinin qalıq dəyərini təhlil edir.

**Satış üçün saxlanılan aktivlər.**

Təşkilat uzunmüddətli aktivi o halda satış üçün nəzərdə tutulan kimi tanıyır ki, onun qalıq dəyəri mütəmadi istifadə vasitəsilə deyil, əsasən satış əməliyyatı vasitəsilə qaytarılacaq. Bu halın baş verməsi üçün uzunmüddətli aktiv hazırkı vəziyyətində dərhal satış üçün hazır olmalıdır, yalnız o şərtlərlə ki, belə aktivlərin satılması üçün şərtlər sadə və adidir və onun satılması yüksək ehtimal edilməlidir.

Satış ehtimalı o zaman yüksək hesab olunur ki, Təşkilatın rəhbərliyi aktivin satılmasını və alıcının təyin edilməsini planlaşdırsın. Bundan əlavə, uzunmüddətli aktiv onun cari ədalətli dəyərinə yaxın qiymətdə satıla bilməlidir və əlavə olaraq satış üçün nəzərdə tutulan təsnifatlaşdırılma tarixindən bir il ərzində uzunmüddətli aktivin satışı başa çatdırılmalıdır.

Satış üçün nəzərdə tutulduğu kimi təsnifatlaşdırılmış aktivləri Təşkilat qalıq dəyəri ilə və ya daha aşağıdırsa satış üzrə xərclərin çıxılması ilə ədalətli dəyərində ölçür. Əgər aktivin vəziyyətindəki dəyişikliklər və ya hadisələr satış üçün nəzərdə tutulan uzun müddətli aktivin dəyərinin aşağı düşməsini işarə edirsə, Təşkilat aktivin dəyərsizləşməsi üzrə zərəri tanıyır. Əgər sonradan aktivin ədalətli dəyərində artım müşahidə olunarsa, aktiv yalnız həmin aktiv üzrə toplanmış dəyərsizləşmə zərəri həcmində tanınır və qeyd olunur.

## 4. MÜHÜM MÜHASİBAT PRİNSİPLƏRİ (Davamı)

### Vergi qanunvericiliyi

Vergi xərcləri cari və təxirə salınmış vergi xərclərinin cəmindən ibarətdir.
Cari vergi xərci hesabat dövrü ərzində yaranmış vergi mənfəəti əsasında hesablanır. Hesabatdakı bəzi gəlir və xərclərin digər dövrlərdə vergi bazasına aid ediləcəyinə və bəzi maddələrin heç bir vaxt vergi bazasını hesablayarkən istifadə edilməyəcəyinə görə vergi mənfəəti maliyyə hesabatlarındakı mənfəətdən fərqlənir. Təşkilatın cari mənfəət vergisi xərci, hesabat dövründə qüvvədə olan vergi dərəcələrindən istifadə etməklə hesablanır.

Təxirə salınmış vergi isə aktiv və öhdəliklərin mühasibat uçotuna uyğun qalıq dəyərləri ilə onların vergiyə uyğun qalıq dəyərləri arasındakı fərqlərdən yaranan və gələcəkdə ödəniləcək və ya geri alınacaq məbləğlərin əsasında hesablanır və bu zaman balans öhdəliyi üsulundan istifadə edilir. Təxirə salınmış vergi öhdəliyi ümumiyyətlə bütün vergi bazasını artıran maddələr üçün hesablanır, təxirə salınmış vergi aktivi isə bu aktivdən gələcəkdə istifadə etmək üçün kifayət qədər mənfəətin olması təxmini nəzərə alınaraq maliyyə vəziyyəti hesabatında tanınır. Müvəqqəti fərqlərin mühasibat mənfəətinə və vergi mənfəətinə təsir göstərməyən digər aktiv və öhdəliklərin ilkin tanınması zamanı yarandığı hallarda (biznes kombinasiyaları istisna olmaqla), belə vergi aktiv və öhdəlikləri maliyyə vəziyyəti hesabatında tanınmır.

Təxirə salınmış vergi aktivinin qalıq dəyəri hesabat tarixində nəzərdən keçirilir və əgər gələcəkdəki mənfəət əldə edilməsi ilə bağlı təxminlər bu aktivi reallaşdırmağa imkan vermirsə bu vergi aktivinin dəyəri tam və ya qismən bu təxminlərə uyğunlaşdırılmaq üçün azaldılır.

Təxirə salınmış vergini hesablayarkən vergi aktivinin reallaşdırılması və ya öhdəliyin ödənilməsi zamanı qüvvədə olan vergi dərəcəsindən istifadə edilməlidir. Birbaşa səhmdar kapitalına təsir edən əməliyyatlar istisna olmaqla, təxirə salınmış vergi xərci və ya gəliri birbaşa məcmu gəlir hesabında əks etdirilir. Səhmdar kapitalına təsir edən əməliyyatlarla bağlı təxirə salınmış vergilər də səhmdar kapitalında öz əksini tapır.

Aşağıdakı hallarda təxirə salınmış vergi aktivi və vergi öhdəliyi əvəzləşdirilərək xalis şəkildə təqdim edilə bilər:

- Təşkilatın cari mənfəət vergisi aktivini mənfəət vergisi öhdəliyi ilə əvəzləşdirmək üçün qanuni və icrası mümkün olan hüququ mövcud olduqda; və
- Təxirə salınmış aktiv və öhdəliklər bir vergi orqanı tərəfindən qoyulan məbləğlərə aid edilsin və bu vergilər üzrə öhdəlik eyni müəssisəyə məxsus olsun.

Azərbaycan Respublikasında fəaliyyət göstərən bankların fəaliyyəti nəticəsində digər vergilər də yaranır. Bu vergilər əməliyyat xərclərinin bir hissəsi kimi tanınır və məcmu gəlir hesabatına daxil edilir.

### Ehtiyatlar

Ehtiyatlar, Təşkilat keçmiş hadisələr nəticəsində cari hüquqi və ya əsaslanmış öhdəliyə malik olduqda, öhdəliyin yerinə yetirilməsi üçün iqtisadi səmərə yaradan ehtiyatların azalma ehtimalı olduqda və öhdəlik məbləği etibarlı şəkildə qiymətləndirildikdə uçota alınır.

Ehtiyat kimi tanınan məbləğ hesabat dövrünün sonunda müvafiq risklər və qeyri-müəyyənliklər də nəzərə alınmaqla cari öhdəliyi yerinə yetirmək üçün tələb olunan məbləğin təxmini göstəricisidir. Ehtiyatı hesablayarkən cari öhdəliyi yerinə yetirmək üçün tələb olunan pul vəsaitlərinin təxminindən istifadə edilirsə, ehtiyatın qalıq dəyəri bu pul vəsaitlərinin cari dövrə olan diskontlaşdırılmış dəyərinin cəminə bərabərdir (pulun vaxt dəyərinin əhəmiyyət kəsb etdiyi hallarda). Ehtiyatın qarşılanması üçün tələb edilən iqtisadi faydaların tam və ya qismən üçüncü şəxslərin hesabına geri qaytarılması gözlənilirsə, debitor borc

## 4. MÜHÜM MÜHASİBAT PRİNSİPLƏRİ (Davamı)

aktiv kimi yalnız o halda tanınır ki, üçüncü tərəfin kompensasiya ödəməsi ehtimalı var və bu məbləğ etibarlı şəkildə təxmin edilə bilər.

**Təqaüd və digər mükafatlar üzrə öhdəliklər**

Azərbaycan Respublikası qanunvericiliyinin tələblərinə uyğun olaraq Təşkilat işçilərin əməkhaqlarından təqaüd ayırmaları tutur və onları dövlət sosial müdafiə fonduna köçürür.Bu cürayırmaları hesablayarkən təqaüd sisteminin göstərşlərinə müvafiq olaraq işəgötürənlər tərəfindən cariödənişlərin hesablanması zamanı işçi heyəti üzrə nəzərdə tutlan ümumi xərclərin müəyyən nisbətigötürülür.Belə xərclər müvafiq əmək haqlarının alındığı dövrlərə aid edilir.Təqaüdə çıxdıqdatəqaüdlə bağlı bütün ödənişlər dövlət sosial müdafiə fondu tərəfindən yerinə yetirilir.

Təşkilat Azərbaycan Respublikasının dövlət sosial müdafiə fondu tərəfindən nəzərdə tutulmuştəqaüd proqramından başqa hər hansı bir digər təqaüd proqramında iştirak etmir.Bundan əlavə,Təşkilatda hesablanması tələb olunan pensiya müavinətləri və ya kompensasiya edilən digər mühümmüavinətlər mövcud deyildir.

**Şərti aktivlər və öhdəliklər**

Şərti öhdəliklər maliyyə vəziyyəti hesabatında tanınmır amma bu öhdəliklərlə bağlı pul vəsaitlərininödənilməsinin ehtimalı çox az olduğu hallar istisna olmaqla qalan hallarda hesabatlarda açıqlamalarverilir. Şərti aktivlər maliyyə vəziyyəti hesabatında tanınmır amma belə aktivlərlə bağlı iqtisadimənfəətlərin alınması ehtimalı çox az olduğu hallar istisna olmaqla qalan hallarda hesabatlardaçıqlamalar verilir.

**Nizamnamə kapitalı**

Nizamnamə kapitalı bütün iştirakçılar tərəfindən ödənilmiş payların məbləğidir.Payların ümumi sayıCəmiyyətin nizamnamə kapitalının iştirakçıları arasında mütənasib olaraq bölünür.Nizamnaməkapitalının artırılıb və ya azaldılması təsisçilərin ümumi yığıncağının qərarı ilə həyata keçirilə bilər.

**Xarici valyuta əməliyyatları**

Təşkilatın əməliyyat valyutası onun fəaliyyət göstərdiyi iqtisadi mühitin valyutası olan AzərbaycanManatıdır.

Xarici valyutada olan monetar aktiv və öhdəliklər, balans tarixində mövcud olan ARMB-nın valyutaməzənnəsinə uyğun olaraq Azərbaycan Manatına çevrilir.Xarici valyutada aparılan əməliyyatlar isəəməliyyat tarixinə mövcud olan valyuta məzənnəsinə uyğun olaraq manat ekvivalentinə çevrilir.Buçevrilmələr zamanı yaranan gəlir və xərclər mənfəət və zərər hesablarında xarici valyuta iləəməliyyatlar üzrə gəlirlər (zərər çıxılmaqla) sətrində göstərilir.

**Xarici valyuta məzənnələri:**

Maliyyə hesabatlarının hazırlanması zamanı Təşkilat tərəfindən istifadə edilən hesabat tarixinə valyuta məzənnələri aşağıdakı kimi olmuşdur:

| | 31 dekabr 2015 | 31 dekabr 2014 |
|---|---|---|
| USD/AZN | 1,5594 | 0.7844 |

**Mühüm mühasibat təxminləri və təxmin edilən qeyri-müəyyənliklərin əsas mənbələri**

Təşkilatın maliyyə hesabatlarının hazırlanması hesabat tarixinə təqdim edilən aktiv və öhdəliklərin məbləğlərinə təsir göstərə biləcək və başa çatmış müddət ərzində gəlir və xərclərin təqdim edilmiş məbləğləri üzrə rəhbərlikdən təxminlərin və mülahizələrin verməsini tələb edir. Rəhbərlik mütəmadi

## 4. MÜHÜM MÜHASİBAT PRİNSİPLƏRİ (Davamı)

olaraq öz təxminlərini və mülahizələrini təhlil edir. Rəhbərlik təxminlərini və mülahizələrini tarixi təcrübəyə və müəyyən şərtlər əsasında məntiqli hesab edilən digər faktlara əsaslandırır.Müxtəlif şəraitlərdə və vəziyyətlərdə faktiki nəticələr bu təxminlərdən fərqlənə bilər.Aşağıda göstərilən təxminlər və mülahizələr Təşkilatın maliyyə vəziyyətinin təsvir edilməsi üçün zəruri hesab edilir.

***Dəyərsizləşmə üzrə zərər ehtiyatları***

Dəyərsizləşmə üzrə qiymətləndirilmənin aparılması üçün Təşkilat verilmiş kreditlərin mütəmadiolaraq təhlilini keçirir.Təşkilatın dəyərsizləşmə üzrə zərər ehtiyatları yaratması onun kreditlər vəalınacaq vəsaitlər portfelində yarana biləcək dəyərsizləşmə ehtiyatlarının tanınması məqsədi daşıyır.Təşkilat rəhbərliyi hesab edir ki, ehtiyatlarla bağlı təxminlər ən əsas subyektivlik daşıyan məqamdır,çünki: (i) gələcəkdəki itkilərin faizi və şübhəli kreditlər üzrə yarana biləcək itkilərin ölçülməsi üzrəedilən ehtimallar müxtəlif dövrlər arasında dəyişir, hesabat tarixində isə bu ehtimallar yalnız caritəcrübəyə əsaslanır, və (ii) Təşkilatın təxmin etdiyi itkilərlə faktiki itkilər arasında əhəmiyyətlifərqlər yaranarsa, bu fərqlər Təşkilatın gələcəkdəki fəaliyyətinin yekunlarına, eləcə də maliyyəvəziyyətinə təsir göstərə bilər.

Borcalanın maliyyə çətinlikləri olduqda və eyni borcalana aid az tarixi məlumat mənbələri əldə etdiyi hallarda dəyərsizləşmə zərərinin məbləğini təxmin etmək üçün Təşkilatın rəhbərliyi mülahizələrdən istifadə edir. Eləcə də, Təşkilat əvvəlki təqdimat əsasında gələcək pul vəsaitlərinin hərəkətində dəyişiklikləri, müştərilərin əvvəlki davranışını, qrup daxilində borcalanın ödəniş qabiliyyətində mənfi dəyişikliklər haqqında ümumi məlumatı və qrup daxilində aktivlər üzrə öhdəliklərin yerinə yetirilməməsi ilə əlaqədar olan ölkə miqyaslı və yerli iqtisadi şərtlərə dair təxminlər edir.Rəhbərlik kredit riski daşıyan aktivlər üzrə tarixi zərər təcrübəsinə və kreditlər qrupunda dəyərsizləşmə üzrə eyni olan obyektiv sübutlara əsaslanan təxminlərdən istifadə edir.Tarixi məlumatda cari şərait əks olunmadığından, yeni kreditlər qrupuna dair müşahidə olunan məlumata düzəlişlər etmək üçün Təşkilat rəhbərliyi mülahizələrdən istifadə edir.

Maliyyə hesabatlarında maliyyə aktivləri üzrə dəyərsizləşmə ehtiyatları, mövcud iqtisadi və siyasi şərtlər əsasında təyin edilmişdir.Ölkədə baş verə biləcək hadisələri və bu şəraitin maliyyə aktivləri üzrə gələcək dövrlərdə dəyərsizləşmə ehtiyatlarının uyğunluğuna edəcəyi təsirlə bağlı Təşkilat qabaqcadan xəbər vermək iqtidarında deyil.

## 5. YENİ VƏ YENİDƏN İŞLƏNİLMİŞ STANDARTLARIN QƏBUL EDİLMƏSİ

Maliyyə hesabatlarının hazırlanması üçün növbəti yeni, düzəliş və dəyişikliklər edilmiş bəyanatlar ilk dəfə 1 Yanvar 2015-ci il tarixindən başlayan maliyyə ili üçün icbaridir (Bu siyahı aralıq maliyyə hesabatlarına və ya BMUS-un ilk tətbiqçilərinə, onların BMUS Hesabatlarına təsir edən yeni və dəyişdirilmiş tələblər barədə məlumatı ehtiva etmir).

***BMHS 9 standartı "Maliyyə Alətləri" (2009 - cu ilin noyabr ayında buraxılmış və 2010 - cu ilin oktyabr ayında dəyişdirilmişdir)***- Bu standart maliyyə aktivlərinin təsnifatı üzrə növbəti yeni tələbləri təqdim edir:

- "Biznes modeli" və "Pul vəsatlərinin hərəkəti xüsusiyyətləri" test modellərinin hər ikisinin tələblərinə cavab verən borc alətləri amortizasiya olunmuş maya dəyərində ölçülür. (bəzi məhdud hallarda ədalətli dəyərin tətbiq olunması yol veriləndir)
- Kapital alətlərinə investisiyalar yalnız mənfəət və ya zərərdə tanınmış dividendlərlə "digər məcmu gəlir daxilində ədalətli dəyər" kimi təyin edilə bilər.
- Bütün digər maliyyə alətləri (törəmələr də daxil olmaqla) hər bir hesabat dövrünün sonunda ədalətli dəyərlə ölçülür.

## 5. YENİ VƏ YENİDƏN İŞLƏNİLMİŞ STANDARTLARIN QƏBUL EDİLMƏSİ (davamı)

“Əlaqədar törəmə alətləri” anlayışı Standard daxilində maliyyə aktivləri üçün tətbiq edilmir və bütünlüklə yuxarıda qeyd olunan qaydalara uyğun olaraq tanınmalı və ölçülməlidir.

Yenidən işlənmiş 9 №-li BMHS maliyyə öhdəliklərinin təsnifatı və ölçülməsi üzrə yeni tələbləri və BMUS 39 *Maliyyə Alətləri: Tanınma və ölçülmə* üzrə mövcud tanınmanın dayandırılması tələblərini özündə birləşdirir.
Yenidən işlənmiş maliyyə öhdəlikləri üzrə ehtiyyatlar əksər öhdəliklər üçün amortizasiya olunmuş maya dəyərini qoruyub saxlamışdır. Yeni tələblər müəssisə öhdəliklərini mənfəət və ya zərər vasitəsilə ədalətli dəyərdə tanıdığı zaman tətbiq olunur - bu halda, müəssisənin kredit riskinə bağlı ədalətli dəyərindəki dəyişiklik mənfəət və ya zərər hesabatında deyil, digər məcmu gəlirlərdə tanınır.
Maliyyə öhdəliklərinin təsnifatı və ölçülməsi ilə bağlı BMHS 9-un ən əhəmiyyətli təsiri maliyyə öhdəliyinin ədalətli dəyərində dəyişikliklərin uçotu ilə bağlıdır ki, kredit riskində dəyişiklik mənfəət və ya zərər vasitəsilə ədalətli dəyərlə təyin edilir . Xüsusilə, 9 saylı BMHS, mənfəət və ya zərər vasitəsilə ədalətli dəyərlə nəzərdə tutulmuş maliyyə öhdəlikləri üçün, maliyyə öhdəliyinin ədalətli dəyərindəki kredit riskinə aid dəyişikliyinin məbləği mənfəət və zərərdə uyğunsuzluq və kənarlaşmalara səbəb olmadığı halda digər məcmu gəlirdə tanınır. Maliyyə öhdəliyi üzrə kredit riskinə aid edilən ədalətli dəyərdə dəyişikliklər mənfəət və zərər hesabatından kənar təsnifləşdirilmir. Hal-hazırda, 39 saylı BMUS-a əsasən, maliyyə öhdəliyinin ədalətli dəyərindəki dəyişikliklərin məbləği ədalətli dəyərdə olduğu kimi bütünüklə mənfəət və ya zərərdə tanınır.
Tanınmanın dayandırılması ilə bağlı müddəalar BMUS 39-dan demək olar ki, dəyişməz olaraq keçirilmişdir. BMHS 9, dəyərsizləşmə üzrə tələblər, təlimat və hedcinq uçotu daxil olmaqla 1 Yanvar 2015-ci il və ondan sonrakı illik dövrlər üçün qüvvəyə minir. Müəssisə rəhbərləri təxmin edirlər ki, BMHS 9 qüvvədə olduğu dövrdən başlayaraq tətbiq olunacaq və onun tətbiqi müəssisənin maliyyə hesabatlarına əhəmiyyətli dərəcədə təsir göstərəcək. Lakin ətraflı baxış tamamlanana qədər həmin təsir ilə bağlı əsaslı mülahizələrin irəli sürülməsi əlverişli deyil.

**Nəşr edilmiş, lakin hələ qüvvəyə minməmiş yeni və yenidən işlənmiş bildirişlər**.

Müəssisə BMUSŞ-ın buraxdığı, lakin hələ 1 Yanvar 2015-ci il tarixində başlayan maliyyə ili üçün qüvvəyə minməyən, aşağıdakı yeni, yenidən işlənmiş və ya düzəlişlər edilmiş bildirişləri tətbiq etməmişdir. Müəssisə rəhbərləri yeni standartların, düzəlişlərin və şərhlərin Müəssisənin maliyyə hesabatlarına qəbulunu həmin dövrlər üçün nəzərdə tutur və gələcək dövrlərdə qüvvəyə minəcək bütün yeni standartların, düzəlişlərin və şərhlərin potensial təsirini praktiki cəhətdən mümkün olduğu qədər qiymətləndirmişdir.

***10 saylı MHBSvə28 saylı MUBS*** -Payçı və Onun Asılı müəssisəsi və ya Birgə Müəssisəsi Arasında Aktivlərin Satışı və ya Əvəzsiz Verilməsi – 10 saylı MHBS və 28 saylı MUBS-ə düzəlişlər 1 yanvar 2016-cı il tarixindən başlanan dövrlər üçün qüvvədədir.

**Əsas tələblər**
Düzəlişlər 10 saylı MHBS və 28 saylı MUBS arasında satılmış, asılı və ya birgə müəssisəyə çevrilmiş törəmə müəssisədə nəzarətin itirilməsinə aid ziddiyyətlərlə bağlıdır. Düzəlişlər aydınlıq gətirir ki, *"Müəssisələrin Birləşməsi"* adlı 3 saylı MHBS-də payçı və onun asılı müəssisəsi və ya birgə müəssisəsi arasında biznesə aid olan aktivlərin satışından və ya bağışlanılmasından yaranan gəlir və ya zərər tam tanınmalıdır. Belə ki, biznesə aid olmayan aktivlərin satışından və ya əvəzsiz verilməsindən gəlir və ya zərər asılı və ya birgə müəssisədə əlaqəli olmayan payçıların maraqları çərçivəsində tanınmalıdır.

**Keçid**
Düzəlişlər prospektiv olaraq tətbiq olunmalıdır. Erkən tətbiqetməyə icazə verilir, lakin bu zaman açıqlamalar verilməlidir.

## 5. YENİ VƏ YENİDƏN İŞLƏNİLMİŞ STANDARTLARIN QƏBUL EDİLMƏSİ (davamı)

**Təsir**
Düzəlişlər təcrübədə müxtəlifliyi aradan qaldıracaq və maliyyə hesabatlarını hazırlayanlara bu cür əməliyyatları qeydə almaq üçün əsaslı qaydalar toplusu verəcəkdir. Lakin, biznes anlayışının tətbiqi mübahisəlidir və müəssisələr bu anlayışı belə əməliyyatlarda ehtiyatla nəzərə almalıdırlar.

**10 saylı MHBS, 12 saylı MHBS və *28 saylı MUBS İnvestisiya müəssisələri:*** *Konsolidasiyada istisnalara tətbiq olunur – 10 saylı MHBS, 12 saylı MHBS və 28 saylı MUBS-ə düzəlişlər* 1 yanvar 2016-cı il tarixindən başlanan dövr üçün qüvvəyə minir.

**Əsas tələblər**
Düzəlişlər investisiya müəssisələrinə 10 saylı MHBS altında tətbiq olunan istisna hallarını əhatə edir. 10 saylı MHBS-ə düzəlişlər bütün törəmə müəssisələrini ədalətli dəyərlə ölçən investisiya müəssisəsinin törəməsi olan ana şirkətin konsolidə edilmiş maliyyə hesabatlarının təqdimatından (MHBS 10.4) azad edilməsinə aydınlıq gətirir. Bundan əlavə, düzəlişlər izah edir ki, özü investisiya müəssisəsi olmayıb investisiya müəssisələrinə dəstək xidmətləri göstərən və investisiya müəssisənin törəmə şirkəti olan təşkilatlar konsolidə edilir. İnvestisiya müəssisəsinin bütün digər törəmə müəssisələri ədalətli dəyərlə ölçülür. 28 saylı MUBS-ə düzəlişlər pay metodunun tətbiqi zamanı investora investisiya müəssisəsinin ədalətli dəyər ölçüsünü törəmə şirkət və ya birgə müəssisələrdən əldə olunan gəlirlərə aid etməyə imkan verir.

**Keçid**
Dəyişikliklər retrospektiv şəkildə tətbiq edilməlidir. Erkən tətbiqetməyə icazə verilir və bu zaman açıqlanması mütləqdir.

**Təsir**
10 saylı MHBS və 28 saylı MUBS-ə düzəlişlər daha ardıcıl standartları tətbiq edənlər üçün faydalı izahatlar təmin edir. Lakin, çoxmərtəbəli struktura malik investisiya müəssisələrini təcrübədə müəyyən etmək hələ də çətinlik təşkil edə bilər.

***11 saylı “Birgə Əməliyyatlar uçotu” adlı MHBS - 11 saylı MHBS-ə dəyişikliklər edilməsi***
1 yanvar 2016-cı il və bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvəyə minir.

**Əsas tələblər**
Bu dəyişikliklər birgə əməliyyatlarda pay əldə edən müəssisədən 3 saylı MHBS və digər MHBS prinsiplərini tətbiq edərkən 11 saylı MHBS-in tələblərilə ziddiyyət təşkil edilməməsini tələb edir. Bundan əlavə, həmin müəssisələrdə biznes birləşməsi ilə əlaqədar MHBS tərəfindən tələb olunan məlumatlar da açıqlamalıdır. Dəyişikliklər həmçinin müəssisə tərəfindən yaradılan birgə əməliyyatlara da yalnız və yalnız mövcud biznesin bu əməliyyatların formalaşmasında birbaşa təsirə malik olduğu halda tətbiq edilir. Bundan başqa, dəyişikliklər birgə əməliyyat fəaliyyəti üzərində nəzarəti saxlamaqla, əlavə maraqların əldə olunması üçün daha əvvəl mövcud olan maraqların yenidən qiymətləndirilməsinin tələb edilmədiyi hallara da aydınlıq gətirir.

**Keçid**
Dəyişikliklər prospektiv şəkildə tətbiq edilir. Erkən tətbiqetməyə icazə verilir və bu zaman açıqlanmalıdır.

**Təsir**
11 saylı MHBS-ə düzəlişlər, biznes və ya aktivin əldə olunub olunmamasını müəyyən etmək üçün həyata keçirilən qiymətləndirmə əməliyyatlarının həcmini artırır ki, bu da kifayət qədər mübahisəli məsələdir. Müəssisələr müvafiq əməliyyatlara və mövcud vəziyyətə uyğun uçot metodu seçməlidir.

## 5. YENİ VƏ YENİDƏN İŞLƏNİLMİŞ STANDARTLARIN QƏBUL EDİLMƏSİ (davamı)

***14 saylı MHBS - Təxirə Salınmış Nizamlayıcı Hesablar***
1 yanvar 2016-cı il və bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvədir.

**Əsas tələblər**
14 saylı MHBS qanunvericiliklə tələb olunan uçot siyasətini tətbiq edən müəssisələrə ilk dəfə MHBS tətbiq etdikləri dövrə qədər bu siyasəti davam etdirməyə icazə verir. Standard mövcud MHBS hazırlayanlara da aid edilmir. Həmçinin, müəssisənin cari ümumi qəbul edilmiş uçot prinsipləri dövlət tənzimləməsilə aktiv və öhdəliklərin tanınmasına icazə vermirsə, və ya onun cari uçot qaydalarına uyğun, belə bir siyasət qəbul edilməyibsə MHBS-in ilk dəfə tətbiqi zamanı da buna yol verilməyəcəkdir. 14 saylı MHBS-i qəbul edən müəssisələr təxirə salınan hesab qalıqlarını maliyyə vəziyyəti haqqında hesabatda ayrıca sətirdə göstərməli, mənfəət və ya zərər və digər məcmu gəlirlər hesabatında ayrıca gəlir-xərc maddəsi kimi təqdim etməlidir.Standart qeyd olunan hesabların xarakterik xüsusiyyətlərinin və onlarla bağlı risklərin açıqlanmasını, həmçinin qanunvericilik tənzimlənməsinin müəssisənin maliyyə hesabatlarına təsiri ilə bağlı açıqlamaların təqdim olunmasını tələb edir.

**Keçid**
Erkən tətbiqetmə mümkündür və açıqlanmalıdır.

**Təsir**
14 saylı MHBS ilk dəfə MHBS tətbiq etməyə başlayan müəssisələri qanunvericilik tənzimləməsilə tanınan aktiv və öhdəliklərinin geri tanınması tələbindən bu qəbildən olan aktiv və öhdəliklərin uçotu ilə bağlı hərtərəfli layihə MUBSŞ tərəfindən hazırlanana qədər azad edir. Bu cür layihənin hazırlanması MUBSK-nın gündəmində aktualdır.

***1 saylı MUBS Açıqlama Təşəbbüsü – 1 saylı MUBS-ə düzəlişlər.***
1 yanvar 2016-cı il və bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvədir.

**Əsas tələblər**
*"Maliyyə Hesabatlarının Təqdimatı"* adlı 1 saylı MUBS-ə düzəlişlər əhəmiyyətli dəyişikliklərdən daha çox, mövcud 1 saylı MUBS-in tələblərini aydınlaşdırır.

Düzəlişlər aşağıdakılara aydınlıq gətirir:
• 1 saylı MUBS-də əhəmiyyətlilik tələblərinə;
• mənfəət və ya zərər və digər məcmu gəlir, eləcə də maliyyə vəziyyəti haqqında hesabatı(ları)nın xüsusi bəndləri daha ətraflı açıqlanmasına;
• Müəssisələrin maliyyə hesabatları üzrə qeydlərdə sərbəstliyin mövcudluğuna;
• Asılı və birgə müəssisələrin digər məcmu gəlirdə payı iştirak payı metodundan istifadə edilməklə, cəm halında bir maddə kimi təqdim olunmalıdır və sonradan mənfəət və zərərə təsnifləşdirilməyən və ya təsnifləşdiriləcək maddələr arasında qruplaşdırılmalıdır.
Bundan başqa, düzəlişlər, maliyyə vəziyyəti və mənfəət və zərər hesabatlarında və digər məcmu gəlirdə əlavə yarımmaddələrə tətbiq edilən tələbləri aydınlaşdırır.

**Keçid**
Erkən tətbiq etməyə icazə verilir və müəssisələrdən bunu açıqlamaq tələb olunmur. Çünki, Şura bu düzəlişlərin müəssisənin mühasibat uçotu siyasətinə və uçot qiymətləndirmələrinə təsir etmədiyini hesab edir.

**Təsir**
Bu düzəlişlər MHBS-in təqdimat və açıqlama tələblərini ödəyən zaman mühakimələri tətbiq etməkdə müəssisələrə yardımçı olur, tanınma və qiymətləndirilmə meyarlarına isə təsir etmir.

## 5. YENİ VƏ YENİDƏN İŞLƏNİLMİŞ STANDARTLARIN QƏBUL EDİLMƏSİ (davamı)

***16 saylı MUBS və 38 saylı MUBS Qəbul olunmuş köhnəlmə və amortizasiya üsullarının aydınlaşdırılması*** – 16 saylı MUBS və 38 MUBS-ə düzəlişlər
1 yanvar 2016-cı il və bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvədir.

**Əsas tələblər**
Düzəlişlər 16 saylı "Torpaq, tikili və avadanlıqlar" adlı MUBS və 38 saylı "Qeyri-maddi aktivlər" adlı MUBS-in prinsiplərini aydınlaşdırır. Bu prinsipə görə, gəlir, aktivin istifadəsi nəticəsində sərf olunan iqtisadi faydanı deyil, biznes fəaliyyətindən yaranan iqtisadi faydanın (aktivin fəaliyyəti nəticəsində) formasını əks etdirir. Nəticədə, qazanılmış gəlirin gözlənilən cəmi gəlirə nisbəti torpaq, tikili və avadanlıqların köhnəlməsində rol oynaya bilməz, yalnız çox məhdud şəkildə qeyri-maddi aktivlərin amortizasiyasında rol oynaya bilər.

**Keçid**
Düzəlişlər prospektiv olaraq tətbiq olunmalıdır. Erkən tətbiq etməyə icazə verilir, lakin bu zaman açıqlanmalıdır.

**Təsir**
Hazırda torpaq, tikili və avadanlıqlar üçün gəlir əsaslı köhnəlmə metodundan istifadə edən müəssisələr öz hazırki köhnəlmə üsullarını qəbul olunan metoda dəyişməli olacaqlar. Bu metod aktivin istifadə müddətinin əvvəlində daha çox köhnəlmə xərci tanıyan azalan qalıq metodudur. Qazanılmış gəlir qeyri-maddi aktivin amortizasiyası üçün çox məhdud hallarda istifadə oluna bilər.

***16 saylı MUBS və 41 saylı MUBS Kənd təsərrüfatı: Daşıyıcı bitkilər*** – 16 saylı MUBS və 41 saylı MUBS-ə düzəlişlər
1 yanvar 2016-cı il və bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvədir.

**Əsas tələblər**
16 saylı MUBS və 41 saylı "Kənd təsərrüfatı" adlı MUBS-ə dəyişikliklər daşıyıcı bitkilər (məsələn, meyvə ağacları) tərifinə uyğun olan bioloji aktivləri aid etmək üçün 16 saylı MUBS-in tətbiq sahəsini dəyişir. Daşıyıcı bitkilərdə yetişən kənd təsərrüfatı məhsulları (məsələn, ağacda yetişən meyvələr) 41 saylı MUBS-in tətbiq sahəsində qalacaq. Yeni düzəlişlərə əsasən, daşıyıcı bitkilərin uçotu bundan sonrakı ölçülmə məqsədilə ilkin dəyər və yenidənqiymətləndirmə dəyəri arasında seçim də daxil olmaqla, 16 saylı MUBS-in tanınma və ölçülmə tələblərinə uyğun aparılacaq. Bundan başqa, daşıyıcı bitkilərlə əlaqəli olan hökümət subsidiyalarının uçotu 41 saylı MUBS əvəzinə, 20 saylı "*Hökumət subsidiyalarının uçotu və hökumət yardımı haqqında məlumatların açıqlanması*" adlı MUBS-ə uyğun olaraq aparılacaq.

**Keçid**
Müəssisələr düzəlişləri tam olaraq retrospektiv qaydada tətbiq edə bilərlər. Alternativ olaraq, müəssisə daşıyıcı bitkiləri göstərilmiş erkən dövrün başlanğıcında olan ədalətli dəyəri ilə qiymətləndirməyi seçə bilər. Erkən tətbiqetməyə icazə verilir, lakin bu zaman açıqlanmalıdır.

**Təsir**
Tələblər mənfəət və zərərdə kənd təsərrüfatı məhsulunun hələ də ədalətli dəyərdə qiymətləndirilməsinin dəyişkənliyini istisna etməyəcək. Bundan əlavə, müəssisələr bu aktivlərin daşıyıcı bitkilərdən ayrılıqda ədalətli dəyərini təyin etmək üçün müvafiq metodologiyalar müəyyən etməlidirlər. Bu, qiymətləndirmənin mürəkkəbliyini və subyektivliyini artıra bilər.

**27 saylı MUBS** ***Fərdi Maliyyə Hesabatlarında İştirak Payı Metodu*** – 27 saylı MUBS-ə Dəyişikliklər
1 yanvar 2016-cı il tarixindən başlanan dövrlər üçün qüvvədədir.

## 5. YENİ VƏ YENİDƏN İŞLƏNİLMİŞ STANDARTLARIN QƏBUL EDİLMƏSİ (davamı)

**Əsas tələblər**
27 saylı *"Fərdi Maliyyə Hesabatları"* adlı MUBS, öz fərdi maliyyə hesabatlarında törəmə, asılı və birgə müəssisələrindəki investisiyalarını uçota almaq üçün 28 saylı MUBS-də göstərildiyi kimi iştirak payı metodundan istifadə etməyə icazə verir. Beləliklə, müəssisə bu investisiyalar üçün aşağıdakı üsulları nəzərə almalıdır:
• İlkin dəyərdə
• 9 saylı MHBS-ə uyğun olaraq (və ya MUBS 39) və yaxud
• İştirak payı metodundan istifadə etməklə.
Müəssisə investisiyaların hər bir kateqoriyası üçün eyni uçotu tətbiq etməlidir.
Həmçinin, 1 saylı *"Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarının ilk dəfə tətbiq edilməsi"* adlı MHBS-ə da əhəmiyyətli düzəlişlər olunmuşdur. 1 saylı MHBS-ə düzəlişlər, fərdi maliyyə hesabatlarında investisiyaların uçotunu ilk dəfə tətbiq edənə icazə verir ki, investisiya əldə olunmasına aid əvvəlki biznes birləşmələrinə görə 1 saylı MHBS-in güzəştini tətbiq etmək üçün iştirak payı metodunu istifadə etsin.

**Keçid**
Dəyişikliklər retrospektiv şəkildə tətbiq edilməlidir.Erkən tətbiqetməyə icazə verilir və açıqlanmalıdır.

**Təsir**
Düzəlişlər qanunların törəmə, asılı və birgə müəssisələrin nəzərə alınması ilə fərdi maliyyə hesabatlarını iştirak payı metodu ilə təqdim etməsini tələb etdiyi halda, ölkələr üçün Ümumi Qəbul Olunmuş Mühasibat Uçotu Prinsiplərinin (ÜQOMUP) fərqlərini aradan qaldırır.

**5 saylı *"Satış üçün saxlanılmış uzunmüddətli aktivlər və dayandırılmış əməliyyatlar"***adlı MHBS
Silinmə üsullarında dəyişikliklər
• Aktivlər (və ya silinmə qrupları) ümumiyyətlə, ya satış, ya da mülkiyyətçilər arasında bölüşdürülməsi ilə silinir. Düzəliş aydınlaşdırır ki, satış üsullarından birində dəyişiklik satışın yeni planı kimi göstərilə bilməz, əksinə o, əsas planın davamıdır.Bu, 5 saylı MHBS-də tələblərin tətbiqinin fasiləsizliyi səbəbindəndir.
• Düzəliş prospektiv olaraq tətbiq edilməlidir.

**7 saylı MHBS *"Maliyyə alətləri": Açıqlamalar*Xidməti müqavilələr**

• Düzəliş aydınlaşdırır ki, xidmət haqqını özündə əks etdirən xidməti müqavilə maliyyə aktivlərində davamlı olaraq əksini tapa bilər. Müəssisə tələb olunan açıqlamaların dəyərləndirilməsi üçün 7 saylı MHBS-in B30 bəndində və 7 saylı MHBS-in 42C bəndində xidmət haqqının növünü və sözləşməni qiymətləndirməlidir.

• Davamlı olaraq təşkil olunan xidməti müqavilələrin qiymətləndirilməsi retrospektiv olmalıdır. Lakin, tələb olunan açıqlamaların müəssisənin dəyişiklikləri ilk tətbiq etdiyi dövrdən əvvəlki hər hansı dövrü göstərməsinə ehtiyac yoxdur.

**Əvəzləşdirilmiş açıqlamaların qısaldılmış aralıq maliyyə hesabatlarına tətbiqi**

• Düzəliş aydınlaşdırır ki, açıqlamanın əvəzləşdirilmiş tələbləri qısaldılmış aralıq maliyyə hesabatlarında tətbiq edilmir, belə açıqlamalar ən sonuncu illik hesabatda əhəmiyyətli məlumatların yenilənməsini təmin edir.
• Düzəliş retrospektiv qaydada tətbiq edilməlidir.

**15 saylı MHBS *Müştərilər ilə Müqavilələrdən Gəlir***
1 yanvar 2017-ci il və bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvəyə minir.

## 5. YENİ VƏ YENİDƏN İŞLƏNİLMİŞ STANDARTLARIN QƏBUL EDİLMƏSİ (davamı)

**Əsas tələblər**
15 saylı MHBS maliyyə hesabatlarının beynəlxalq standartlarının gəlirlərlə bağlı bütün mövcud tələblərini əvəz edir (BMS 11 *Tikinti Müqavilələri,* BMS 18 *Gəlir,* BMHŞK 13 *Müştəri Loyallığı Proqramları*, BMHŞK 15 *Daşınmaz əmlakın tikintisi üzrə Müqavilələr*, BMHŞK 18 *Müştərilər Tərəfindən Aktiv Köçürmələri* və CŞK 31 Gəlir- reklam xidmətlərinin cəlb olunması ilə Barter əməliyyatları ) və müştərilərlə müqavilələrdən irəli gələn bütün gəlirlərə aid edilir. O, həmçinin əmlak, avadanlıq və qeyri-maddi aktivlərin, o cümlədən müəyyən qeyri-maliyyə aktivlərinin tanınması və ölçülməsi üçün model təmin edir. Standart eyni zamanda müəssisənin gəlirlərini ölçməsi və tanıması üçün prinsipləri ehtiva edir. Burada əsas prinsip müəssisənin mal və ya xidmətlərin müştəriyə çatdırılması müqabilində əldə edəcəyi məbləğdə maliyyə vəsaitinin gəlir kimi tanınmasıdır.

15 saylı MHBS-in əsas prinsipləri 5 mərhələli modelin istifadəsi ilə tətbiq olunacaqdır:

1. Müştəri ilə müqavilə(lər)nin müəyyən edilməsi
2. Müqavilə üzrə icra öhdəliklərinin müəyyən edilməsi
3. Köçürmə dəyərinin müəyyən edilməsi
4. Köçürmə dəyərinin müqavilə üzrə icra öhdəliklərində ayrılması
5. İcra öhdəliyi yerinə yetirildiyi zaman gəlirin tanınması.

Standart müəssisədən öz müştəriləri ilə müqavilələrə tətbiq etdiyi modelin hər bir addımda bütün mümkün faktları və vəziyyətləri nəzərə alaraq mühakimə aparmağı tələb edir. Standart həmçinin artan xərcləri və birbaşa müqavilənin yerinə yetirilməsi ilə bağlı xərclərin hesablanma yollarını göstərir. 15 saylı MHBS-də təmin edilmiş təlimat əqli mülkiyyət, lisenziya, zəmanət, geri alma hüquqları, sifarişçi-agent tənzimləmələri, əlavə mallar və ya xidmətlər üçün seçimlər və s. bu kimi ümumi məsələlərdə yardım məqsədilə nəzərdə tutulmuşdur.

**Keçid**
Dəyişikliklər müəssisələr tərəfindən bəzi azadolmalar nəzərə alınmaqla tam retrospektiv şəkildə və ya dəyişdirilmiş retrospektiv yanaşma ilə tətbiq edə bilərlər. Erkən tətbiqetməyə icazə verilir və bu zaman açıqlanması mütləqdir.

**Təsir**
15 saylı MHBS cari MHBS-dən daha əlverişlidir və daha çox təlimatla təmin edir. Açıqlama tələbləri də daha genişdir. Standartın bütün sahələrdən olan müəssisələrə təsiri gözlənilir. Onun qəbulu müəssisənin cari mühasibatlıq sistem və prosedurlarında potensial dəyişikliklərə səbəb olacaqdır. Məhz bu səbəbdən erkən tətbiqetmə daha məqsədə uyğundur. Əlavə olaraq, aidiyyəti qurumlarda məsələ ilə bağlı müzakirələr davam etməkdə olduğu üçün müəssisələrin bu müzakirələri diqqətdə saxlamaları çox əhəmiyyətlidir.

**9 saylı MHBS “*Maliyyə alətləri*”**
1 yanvar 2018-ci il tarixindən başlanan dövrlər üçün qüvvədədir.
**Əsas tələblər**
*Maliyyə aktivlərinin təsnifatı və qiymətləndirilmə*
Əgər maliyyə alətləri mənfəət və zərərdə ədalətli dəyərlə hesablanmazsa, o zaman, bütün maliyyə aktivləri ilkin tanınmada əməliyyat xərcləri üzrə düzəlişlər edilməklə, ədalətli dəyərlə qiymətləndirilir. Borc alətləri nəticədə mənfəət və zərərdə ədalətli dəyərlə ölçülür, amortizasiya olunmuş dəyər və yaxud ədalətli dəyər digər məcmu gəlirdə, onların müqavilədə göstərilmiş pul vəsaitlərinin hərəkətinə və borc öhdəliklərinin saxlanıldığı biznes modelinə əsaslanır. Əgər uçot uyğunsuzluqlarını ləğv edirsə və ya əhəmiyyətli dərəcədə azaldılırsa, ədalətli dəyər opsionu maliyyə aktivlərinin ilkin olaraq mənfəət və

## 5. YENİ VƏ YENİDƏN İŞLƏNİLMİŞ STANDARTLARIN QƏBUL EDİLMƏSİ (davamı)

zərərdə ədalətli dəyərlə tanınmasına imkan verir. Kapital alətləri ümumiyyətlə, mənfəət və zərərdə ədalətli dəyərlə qiymətləndirilir.

*Maliyyə öhdəliklərinin təsnifatı və qiymətləndirilməsi*
Ədalətli Dəyər Seçimindən istifadə olunaraq mənfəət və zərərin ədalətli dəyəri ilə ölçülən maliyyə öhdəlikləri üçün kredit riskindəki dəyişikliklərə tabe olan belə maliyyə öhdəliklərinin ədalətli dəyərindəki dəyişikliyin məbləği Digər Məcmu Gəlirlər hesabatında təqdim olunmalıdır. Öhdəliyin kredit riski baxımından ədalətli dəyərindəki dəyişikliyin Digər Məcmu Gəlirlər hesabatında təqdimatı Mənfəət və ya Zərər hesabatında mühasibat uçotu uyğunsuzluğu yaratmasına və ya artırmasına baxmayaraq, ədalətli dəyərdəki dəyişikliyin qalanı Mənfəət və ya Zərər hesabatında təqdim edilir.
Maliyyə öhdəlikləri üçün 39 saylı *"Maliyyə Alətləri"* adlı MHBS: Tanınma və Ölçülmə standartının digər bütün təsnifat və ölçmə tələbləri, əlaqədar törəmələrin maliyyə alətlərinin ayrılması qaydaları və Ədalətli Dəyər Seçimindən istifadə olunması üçün kriteria da daxil olmaqla, 9 saylı MHBS-ə keçirilmişdir.
*Dəyərsizləşmə*
Dəyərsizləşmə tələbləri 39 saylı MHBS-in çəkilmiş zərər modelini əvəz edən gözlənilən kredit zərəri modelinə əsaslanır. Gözlənilən kredit zərəri modeli amortizasiya olunmuş ilkin dəyərlə və ya Digər Məcmu Gəlirlər vasitəsilə Ədalətli Dəyərlə ölçülən borc alətlərinə; əksər kredit öhdəliklərinə; maliyyə zəmanəti müqavilələrinə; 15 saylı MHBS-ə əsasən, müqavilə aktivlərinə; və 17 saylı "İcarələr" adlı MUBS-ə əsasən lizinq üzrə debitor borclarına tətbiq edilir. Müəssisələrdən əsasən, ilkin tanınmadan bəri kredit riskində əhəmiyyətli artımın olub-olmamasından asılı olaraq, 12 aylıq və ya ömürlük gözlənilən kredit zərərini tanımaq tələb olunur. Bəzi debitor borcları üçün ömürlük gözlənilən kredit zərəri tanınanda sadələşdirilmiş yanaşma tətbiq edilə bilər.

*Hedcinq uçotu*
Hedcinq effektivlik testi 39 saylı MUBS-dəki 80%-dən 125%-dək aydın xətt testindən perspektivlidir və hedcinqin mürəkkəbliyindən asılı olaraq keyfiyyətli ola bilər. Risk komponenti ayrılıqda müəyyənləşdirilə bilən və etibarlı şəkildə ölçülə bilən olarsa, maliyyə və qeyri-maliyyə alətinin risk komponenti hedcinq maddəsi kimi təyin edilə bilər.
Opsiyonun zaman dəyəri, forvard müqaviləsinin istənilən elementində, xarici valyuta alqı-satqısındakı əsaslı fərqlər hedcinq alətlərindən çıxarıla bilər və hedcinq xərci kimi tanına bilər.

**Keçid**
İlkin tətbiq olunmaya 24 iyul 2014-cü ildən sonra başlanan hesabat dövrləri üçün icazə verilir. 9 saylı MHBS-ə keçid öz tələbləri ilə fərqlənir və bir hissəsi retrospektiv və digər bir hissəsi də prospektivdir. 9 saylı MHBS bütövlükdə tətbiq olunması tələbinə baxmayaraq, müəssisələr ilk vaxtlarda standartdakı digər tələbləri tətbiq etmədən, yalnız Mənfəət və ya Zərər vasitəsilə Ədalətli Dəyərlə təyin edilmiş maliyyə öhdəlikləri üzrə qazanc və itkilərin təqdimatı üçün olan tələbləri tətbiq etməyi seçə bilər.

**Təsir**
9 saylı MHBS-in tətbiq olunması bir çox maliyyə alətlərinin müqavilə üzrə pul vəsaitlərinin hərəkətindən və istifadə edildiyi biznes modelindən asılı olaraq ölçülməsini və təqdimatını dəyişə bilər. Dəyərsizləşmə tələbləri ümumiyyətlə kredit zərərlərinin daha erkən tanınması ilə nəticələnir. Yeni hedcinq modeli hedcinq uçotunun tələblərinə cavab verən daha qənaətcil hedciq strategiyalarının tətbiqinə apara bilər.

Yuxarıda göstərilən hallardan başqa, yeni standartların və şərhlərin əhəmiyyətli dərəcədə Müəssisənin maliyyə hesabatlarına təsiri gözlənilmir.

## 6. PUL VƏ PUL VƏSAİTLƏRİ

Pul və pul vəsaitləri aşağıdakılardan ibarətdir:

| *Azərbaycan manatı ilə* | **31 dekabr 2015** | **31 dekabr 2014** |
|---|---|---|
| Milli valyutada nağd pul | 9,315 | 6,037 |
| Milli valyutada müxbir bank hesabı | 420,028 | 600,784 |
| Xarici valyutada müxbir bank hesabı | 317,363 | 290,304 |
| **Cəmi pul və pul vəsaitləri** | **746,706** | **897,125** |

## 7. BANKLARDAN ALINACAQ VƏSAİTLƏR

Bu məbləğ yerli bankda 2013-cü ilin dekabr ayında 7,000,000 ABŞ dollar, 2014-cü ilin oktyabr ayında 2,000,000 ABŞ dolları və noyabr ayında 2,000,000 ABŞ dolları məbləğində yerləşdirilmiş depozitləri əks etdirir. 31 dekabr 2014-ci il tarixinə əmanətlərin məbləği 8,628,400 AZN (2013: 5,491,500 AZN) təşkil edirdi.

Təşkilat valyuta riskinin qarşısını almaq məqsədilə "Bank Technique" ASC-də 11,000,000 ABŞ dolları (8,628,400 AZN) məbləğində əmanət yerləşdirmiş və 8,197,645 AZN məbləğində borc götürmüşdür.

Azərbaycan Manatının devalvasiya olması səbəbiylə Bank birtərəfli qaydada 24 fevral 2015-ci il tarixində Təşkilat ilə müqaviləni ləğv edərək, 0.7880 AZN/1 ABŞ dolları valyuta məzənnəsi ilə əmanətin hesabına şirkətin kredit öhdəliklərini bağlamışdır. Bu əməliyyatın mənfəət və ya zərər hesabatına təsiri aşağıda qeyd olunduğu kimidir:

| **Əmanətin ABŞ dollarında qalığı** | **Valyuta Məzənnəsi** | **Əmanətin AZN qalığı** |
|---|---|---|
| 11,000,000 | 0.7880 | 8,668,000 |
| 11,000,000 | 1.0500 | 11,550,000 |
| **Mənfəət və ya zərərə təsiri** | | **(2,882,000)** |

Bu əməliyyatın Təşkilat üçün valyuta itkisi 2,882,000 AZN təşkil edir

## 8. MÜŞTƏRİLƏRƏ VERİLMİŞ KREDİTLƏR

Müştərilərə verilmiş kreditlər aşağıdakılardan ibarətdir:

| *Azərbaycan manatı ilə* | **31 dekabr 2015** | **31 dekabr 2014** |
|---|---|---|
| Fiziki şəxslərə kreditlər – istehlak kreditləri | 5,378,113 | 6,425,701 |
| Fiziki şəxslərə kreditlər – ticarət | 7,042,728 | 7,569,341 |
| Fiziki şəxslərə kreditlər – kənd təsərrüfatı | 12,745,750 | 11,863,879 |
| Fiziki şəxslərə kreditlər – lizinq | 6,123 | 6,975 |
| Fiziki şəxslərə kreditlər – istehsal | 151,421 | 141,665 |
| Fiziki şəxslərə kreditlər – digər | 5,442,914 | 5,190,063 |
| Çıxılsın: Kreditlərin dəyərsizləşməsi üzrə ehtiyat | (1,977,111) | (504,399) |
| **Cəmi müştərilərə verilən kreditlər** | **28,789,938** | **30,693,225** |

31 dekabr 2015 və 2014-cü il tarixlərində müştərilərə verilmiş kreditlər üzrə yığılmış alınacaq faiz gəlirləri müvafiq olaraq 671,254 və 496,829AZN təşkil edir.

## 8. MÜŞTƏRİLƏRƏ VERİLMİŞ KREDİTLƏR (Davamı)

31 dekabr 2015-ci il tarixinə kreditlərin girov təminatı üzrə məlumat aşağıdakı kimi olmuşdur:

| *Azərbaycan manatı ilə* | **Fiziki şəxslərə verilmiş kreditlər** | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | **istehlak kreditləri** | **ticarət** | **kənd təsərrüfatı** | **lizinq** | **istehsal** | **digər** | **Cəmi 31 Dekabr 2015** |
| Təminatsız kreditlər | 5,310,938 | 5,780,538 | 12,180,729 | - | 78,069 | 5,168,427 | **28,518,701** |
| Təmin edilmiş kreditlər | | | | | | | |
| - Daşınmazəmlak | 66,997 | 1,242,714 | 564,743 | - | 73,352 | 229,597 | **2,177,403** |
| - Daşınan əmlak | 178 | 19,476 | 278 | 6,123 | - | 44,890 | **70,945** |
| **Cəmi müştərilərə verilmiş kreditlər** | **5,378,113** | **7,042,728** | **12,745,750** | **6,123** | **151,421** | **5,442,914** | **30,767,049** |

31 dekabr 2014-cü il tarixinə kreditlərin girov təminatı üzrə məlumat aşağıdakı kimi olmuşdur:

| *Azərbaycan manatı ilə* | **Fiziki şəxslərə verilmiş kreditlər** | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | **istehlak kreditləri** | **ticarət** | **kənd təsərrüfatı** | **lizinq** | **istehsal** | **digər** | **Cəmi 31 Dekabr 2014** |
| Təminatsız kreditlər | 6,385,384 | 6,528,171 | 11,322,720 | - | 74,579 | 4,933,165 | **29,244,019** |
| Təmin edilmiş kreditlər | | | | | | | |
| - Daşınmazəmlak | 40,073 | 1,025,849 | 540,550 | - | 67,086 | 198,452 | **1,872,010** |
| - Daşınan əmlak | 244 | 15,321 | 609 | 6,975 | - | 58,446 | **81,595** |
| **Cəmi müştərilərə verilmiş kreditlər** | **6,425,701** | **7,569,341** | **11,863,879** | **6,975** | **141,665** | **5,190,063** | **31,197,624** |

## 8. MÜŞTƏRİLƏRƏ VERİLMİŞ KREDİTLƏR (Davamı)

31 dekabr 2015-ci il tarixinə kreditlərin növləri üzrə təhlili aşağıdakı kimi olmuşdur:

| | Fiziki şəxslərə verilmiş kreditlər | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| *In Azerbaijani Manats* | **istehlak kreditləri** | **ticarət** | **kənd təsərrüfatı** | **lizinq** | **istehsal** | **digər** | **Cəmi 31 Dekabr 2015** |
| **Cari və dəyərsizləşməmiş kreditlər** | | | | | | | |
| Təminatsız kreditlər | 4,704,851 | 4,357,932 | 9,862,037 | - | 69,212 | 4,325,204 | **23,319,236** |
| Təmin edilmiş kreditlər | | | | | | | |
| - Daşınmazəmlak | 66,994 | 1,148,616 | 449,864 | - | 73,352 | 221,927 | **1,960,753** |
| - Daşınan əmlak | - | 19,468 | - | - | - | 15,757 | **35,225** |
| **Cəmi** | **4,771,845** | **5,526,016** | **10,311,901** | **-** | **142,564** | **4,562,888** | **25,315,214** |
| **Vaxtı keçmiş,lakin dəyərsizləşməmiş kreditlər** | | | | | | | |
| - 30 gündən 90 günədək vaxtıkeçmiş | 212,136 | 492,151 | 840,722 | - | 5,440 | 375,852 | **1,926,301** |
| - 90 gündən 180 günədək vaxtıkeçmiş | 239,876 | 610,577 | 1,012,727 | - | - | 308,400 | **2,171,580** |
| - 180gündən 360 günədək vaxtıkeçmiş | - | 7,532 | 102,665 | - | - | 29,133 | **139,330** |
| - 360 gündən çox vaxtıkeçmiş | - | - | - | - | - | - | **-** |
| **Cəmi Vaxtı keçmiş,lakin dəyərsizləşməmiş kreditlər** | **452,012** | **1,110,260** | **1,956,114** | **-** | **5,440** | **713,385** | **4,237,211** |
| **Dəyərsizləşmiş kreditlər** | **154,256** | **406,452** | **477,735** | **6,123** | **3,417** | **166,641** | **1,214,624** |
| **Kreditlərin qalıq dəyəri** | **5,378,113** | **7,042,728** | **12,745,750** | **6,123** | **151,421** | **5,442,914** | **30,767,049** |
| **Çıxılsın: Dəyərsizləşməsi üzrə ehtiyat** | **(235,733)** | **(559,208)** | **(862,043)** | **(6,123)** | **(3,080)** | **(310,924)** | **(1,977,111)** |
| **Cəmi müştərilərə verilmiş kreditlər** | **5,142,380** | **6,483,520** | **11,883,707** | **-** | **148,341** | **5,131,990** | **28,789,938** |

## 8. MÜŞTƏRİLƏRƏ VERİLMİŞ KREDİTLƏR (Davamı)

31 dekabr 2014-cü il tarixinə kreditlərin növləri üzrə təhlili aşağıdakı kimi olmuşdur:

| | **Fiziki şəxslərə verilmiş kreditlər** | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| *In Azerbaijani Manats* | **istehlak kreditləri** | **ticarət** | **kənd təsərrüfatı** | **lizinq** | **istehsal** | **digər** | **Cəmi 31 Dekabr 2014** |
| **Cari və dəyərsizləşməmiş kreditlər** | | | | | | | |
| Təminatsız kreditlər | 6,102,892 | 6,200,841 | 11,180,146 | - | 74,573 | 4,852,963 | **28,411,415** |
| Təmin edilmiş kreditlər | | | | | | | **-** |
| - Daşınmazəmlak | 40,072 | 1,017,553 | 540,550 | - | 67,086 | 190,203 | **1,855,464** |
| - Daşınan əmlak | - | 15,292 | - | - | - | 52,377 | **67,669** |
| **Cəmi** | **6,142,964** | **7,233,686** | **11,720,696** | **-** | **141,659** | **5,095,543** | **30,334,548** |
| **Vaxtı keçmiş,lakin dəyərsizləşməmiş kreditlər** | | | | | | | |
| - 30 gündən 90 günədək vaxtıkeçmiş | 66,514 | 65,229 | 41,259 | - | - | 26,825 | **199,827** |
| - 90 gündən 180 günədək vaxtıkeçmiş | 55,317 | 43,350 | 40,065 | - | - | 23,666 | **162,398** |
| - 180gündən 360 günədək vaxtıkeçmiş | 58,315 | 72,216 | 25,996 | - | - | 18,830 | **175,357** |
| - 360 gündən çox vaxtıkeçmiş | - | - | - | - | - | - | **-** |
| **Cəmi** | **180,146** | **180,795** | **107,320** | **-** | **-** | **69,321** | **537,582** |
| **Dəyərsizləşmiş kreditlər** | **102,591** | **154,860** | **35,863** | **6,975** | **6** | **25,199** | **325,494** |
| **Kreditlərin qalıq dəyəri** | **6,425,701** | **7,569,341** | **11,863,879** | **6,975** | **141,665** | **5,190,063** | **31,197,624** |
| **Dəyərsizləşməsi üzrə ehtiyat** | **(162,446)** | **(218,363)** | **(69,302)** | **(6,975)** | **(5)** | **(47,308)** | **(504,399)** |
| **Cəmi müştərilərə verilmiş kreditlər** | **6,263,255** | **7,350,978** | **11,794,577** | **-** | **141,660** | **5,142,755** | **30,693,225** |

## 8. MÜŞTƏRİLƏRƏ VERİLMİŞ KREDİTLƏR (Davamı)

Kreditin dəyərsizləşməsi üzrə Təşkilat tərəfindən ilkin olaraq nəzərə alınan amillər onun ödəmə müddəti və zəmanətin icra olunmasıdır.Nəticədə, Təşkilat fərdi dəyərsizləşmiş kreditlərin dövri olaraq təhlillərini təqdim edir.Vaxtı keçmiş, lakin dəyərsizləşməmiş kreditlər kateqoriyasına elə kreditlər aid edilir ki, təminatın ədalətli dəyəri vaxtı keçmiş faizləri və əsas ödənişləri əhatə edə bilsin.Vaxtı keçmiş, lakin dəyərsizləşməmiş kreditlərin məbləğinə təkcə gecikdirilən hissə deyil, belə kreditlərin ümumi qalıqları daxil edilir.

31 dekabr 2015-ci il tarixinə vaxtı keçmiş, lakin dəyərsizləşməmiş kreditlər və fərdi dəyərsizləşmiş kreditlərə dair təminatların ədalətli dəyərlərinin açıqlanması aşağıdakı kimi olmuşdur:

| | | | Fiziki şəxslərə kreditlər | | | | |
|---|---|---|---|---|---|---|---|
| *In Azerbaijani Manats* | **istehlak kreditləri** | **ticarət** | **kənd təsərrüfatı** | **lizinq** | **istehsal** | **digər** | **Cəmi** |
| **Vaxtı keçmiş lakin dəyərsizləşməmiş kreditlər üzrə girovların ədalətli dəyəri** | | | | | | | |
| - Daşınmazəmlak | - | 392,200 | 130,766 | - | - | 28,000 | **550,966** |
| - Daşınan əmlak | - | - | - | - | - | 54,000 | **54,000** |
| Dəyərsizləşmiş kreditlər üzrə girovların ədalətli dəyəri | | | | | | | |
| - Daşınmazəmlak | 18,614 | 25,000 | 55,350 | - | - | - | **98,964** |
| - Daşınan əmlak | 18,208 | 7,200 | 4,762 | 115,526 | - | - | **145,696** |
| **Cəmi** | **36,822** | **424,400** | **190,878** | **115,526** | **-** | **82,000** | **849,626** |

## 8. MÜŞTƏRİLƏRƏ VERİLMİŞ KREDİTLƏR (Davamı)

31 dekabr 2014-cü il tarixinə vaxtı keçmiş, lakin dəyərsizləşməmiş kreditlər və fərdi dəyərsizləşmiş kreditlərə dair təminatların ədalətli dəyərlərinin açıqlanması aşağıdakı kimi olmuşdur:

| | | | **Fiziki şəxslərə kreditlər** | | | | |
|---|---|---|---|---|---|---|---|
| *In Azerbaijani Manats* | **istehlak kreditləri** | **ticarət** | **kənd təsərrüfatı** | **lizinq** | **istehsal** | **digər** | **Cəmi** |
| **Vaxtı keçmiş lakin dəyərsizləşməmiş kreditlər üzrə girovların ədalətli dəyəri** | | | | | | | |
| - Daşınmazəmlak | - | - | - | - | - | 160,000 | **160,000** |
| - Daşınan əmlak | - | - | 1,600 | - | - | - | **1,600** |
| Dəyərsizləşmiş kreditlər üzrə girovların ədalətli dəyəri | | | | | | | |
| - Daşınmazəmlak | 18,614 | 67,250 | - | - | - | - | **85,864** |
| - Daşınan əmlak | 20,588 | 7,200 | 4,762 | 91,026 | - | 57,500 | **181,076** |
| **Yekun məbləğ** | **39,202** | **74,450** | **6,362** | **91,026** | **-** | **217,500** | **428,540** |

Hesabatı tarixinə yaşayış üçün nəzərdə tutulmuş daşınmaz əmlakın ədalətli dəyəri Təşkilatın kredit departamentinin təyin etdiyi şəhər və region üzrə kreditlərin ilk dərəcəsinin orta artırılması üzrə təyin edilmiş dəyərlər əsasında təxmin edilmişdir.Digər daşınmaz əmlak və digər aktivlərin ədalətli dəyəri Təşkilatın kredit departamenti tərəfindən mütəxəssislərin və digər qiymətləndirici şirkətinin tövsiyələrindən istifadə etməklə müəyyənləşdirilir. 31 dekabr 2015-ci və 2014-cü il tarixlərinə maksimal kredit riski, müvafiq olaraq, 28,789,938 AZN və 30,693,225 AZN təşkil etmişdir.

## 9. ƏMLAK VƏ AVADANLIQLAR

Əmlak və avadanlıqlar aşağıdakılardan ibarətdir:

| *Azərbaycan Manatı ilə* | Torpaq | Binalar | Mebel və qurğular | Kompüterlər və rabitə avadanlıqları | Nəqliyyat vasitələri | Cəmi |
|---|---|---|---|---|---|---|
| **31 dekabr 2013-ci ildə Qalıq dəyəri** | **215,204** | **1,171,728** | **123,501** | **172,787** | **162,752** | **1,845,972** |
| Əlavələr | - | 63,639 | 33,518 | 104,953 | 113,690 | 315,800 |
| Silmələr/Satışlar | - | - | (12,889) | (29,131) | (112,431) | (154,451) |
| İl üzrə amortizasiya ayırmaları | - | (133,926) | (66,460) | (120,483) | (64,092) | (384,961) |
| Ləğv edilmiş amortizasiya | - | - | 11,957 | 27,718 | 76,198 | 115,873 |
| **31 dekabr 2014-cü ildə Qalıq dəyəri** | **215,204** | **1,101,441** | **89,627** | **155,844** | **176,117** | **1,738,233** |
| 31 dekabr 2013-cü ildə İlkin dəyər | 215,204 | 1,966,382 | 558,379 | 1,237,739 | 365,435 | 4,343,139 |
| Yığılmış amortizasiya | - | (864,941) | (468,752) | (1,081,895) | (189,318) | (2,604,906) |
| **31 dekabr 2014-cü ildə Qalıq dəyəri** | **215,204** | **1,101,441** | **89,627** | **155,844** | **176,117** | **1,738,233** |
| Əlavələr | - | 20,203 | 78,511 | 101,980 | 100,583 | 301,277 |
| Silmələr/Satışlar | - | - | (27,462) | (108,252) | (76,825) | (212,539) |
| İl üzrə amortizasiya ayırmaları | - | (137,755) | (44,098) | (126,606) | (64,650) | (373,109) |
| Ləğv edilmiş amortizasiya | - | - | 26,430 | 100,418 | 62,193 | 189,041 |
| **31 dekabr 2015-ci ildə Qalıq dəyəri** | **215,204** | **983,889** | **123,008** | **123,384** | **197,418** | **1,642,903** |
| 31 dekabr 2014-cü ildə İlkin dəyər | 215,204 | 1,986,585 | 609,428 | 1,231,467 | 389,193 | 4,431,877 |
| Yığılmış amortizasiya | - | (1,002,696) | (486,420) | (1,108,083) | (191,775) | (2,788,974) |
| **31 dekabr 2015-ci ildə Qalıq dəyəri** | **215,204** | **983,889** | **123,008** | **123,384** | **197,418** | **1,642,903** |

## 10. QEYRİ-MADDİ VƏSAİTLƏR

Qeyri-maddi aktivlər aşağıda göstərilənlərdən ibarətdir:

| *Azərbaycan Manatı ilə* | **Qeyri-maddi aktivlər** |
|---|---|
| **31 dekabr 2013-ci ildə Qalıq dəyəri** | **169,578** |
| Əlavələr | 2,501 |
| Silmələr/Satışlar | - |
| İl üzrə amortizasiya ayırmaları | (64,512) |
| Ləğv edilmiş amortizasiya | - |
| **31 dekabr 2014-cü ildə Qalıq dəyəri** | **107,567** |
| 31 dekabr 2013-cü ildə İlkin dəyər | 472,470 |
| Yığılmış amortizasiya | (364,903) |
| **31 dekabr 2014-cü ildə Qalıq dəyəri** | **107,567** |
| Əlavələr | 42,372 |
| Silmələr/Satışlar | - |
| İl üzrə amortizasiya ayırmaları | (47,247) |
| Ləğv edilmiş amortizasiya | |
| **31 dekabr 2015-ci ildə Qalıq dəyəri** | **102,692** |
| 31 dekabr 2013-cü ildə İlkin dəyər | 514,842 |
| Yığılmış amortizasiya | (412,150) |
| **31 dekabr 2015-ci ildə Qalıq dəyəri** | **102,692** |

## 11. DİGƏR AKTİVLƏR

Digər aktivlər aşağıdakılardan ibarətdir:

| *Azərbaycan Manatı ilə* | **31 dekabr 2015** | **31 dekabr 2014** |
|---|---|---|
| **Maliyyə aktivləri** | | |
| Dövlət büdcəsindən alınacaq vəsaitlər | 21,798 | 8,807 |
| Digər alınacaq vəsaitlər | 25,742 | 24,232 |
| **Qeyri-maliyyə aktivləri** | | |
| Qabaqcadan ödənilmiş xərclər | 409,370 | 383,906 |
| Əmlak və avadanlıqların alınması üzrə avans ödənişləri | - | 96,420 |
| Qabaqcadan ödənilmiş vergilər | 275,368 | 78,430 |
| **Cəmi digər aktivlər** | **732,278** | **591,795** |

## 12. DERİVATİV MALİYYƏ ALƏTLƏRİ

